

Milli azadlıqdan şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

13 avqust 2025-ci il, çərşənbə
№ 141 (6968)
Qiyməti 60 qəpik

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.


## Tramp: Onlar iki möhtəşəm insan və böyük liderdirlər. İndi isə mənim yaxşı dostlarım oldular!



**ABŞ Prezidenti Donald Tramp Vaşinqtonda keçirilən tarixi görüşlə bağlı "Truth Social" hesabında paylaşım edib. Trampın sözlərinə görə, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan Baş naziri Nikol Paşinyanla uzun illər davam edən münaqişə və itkilərdən sonra sülh imzalamaq onun üçün böyük şərəfdir. "Onlar iki möhtəşəm insan və böyük liderdirlər. İndi isə mənim yaxşı dostlarım oldular!", - deyə Tramp vurğulayıb.**

## Yeni Yol Xəritəsi...

### Strateji Tərəfdaşlıq Xartiyası iqtisadi-investisiya əməkdaşlığında mühüm səhifə açacaq

Bax səh. 2

## Nobel Sülh Mükafatı kimə verilməlidir?

İnsanların həyatına qan-qada, ölüm-itim gətirən, şirin arzuları puç edən, qurulu şəhərləri, tarixə şahidlik etmiş sivilizasiyaları dağıdan, xalqlar arasında düşmənçilik yaradan müharibələr dünyada hər zaman ciddi narahatlıqlar yaradıb. Bu gün isə beynəlxalq səviyyədə müharibə mövzusunun aktuallığı heç vaxt olmadığı qədər artıb ki, bu da ayrı-ayrı regionlarda eyni vaxtda qanlı müharibələrin alovlanması ilə bağlıdır. Açıq deyək ki, dünya yeni qlobal müharibənin astanasına gəlib çatıb. Narahatlıq doğuran ən mühüm məqam ondan ibarətdir ki, yeni dünya müharibəsinin ənənəvi müharibələrdən kəskin şəkildə fərqlənəcəyinin proqnozları verilir. Belə görünür ki, top-tüfəng, tank, piyadalar kimi resurslarla aparılan müharibə dövrü də keçmişə qovuşmaqdadır. İndi müharibələr daha güclü dağıdıcı gücə malik uzaq mənzilli, hipersəs sürətli innovativ texnikalar vasitəsi ilə aparılır. Ən qorxulusu və dəhşətlisi isə odur ki, ayrı-ayrı güc mərkəzləri, bəzi siyasətçilər bəşəriyyətə əzələ nümayiş etdirərək dünyanı nüvə silahları ilə hədələyirlər.

Təsvir olunan reallıq fonunda dahi Azərbaycan şairi Hüseyn Cavidin aşağıdakı misraları yada düşür:

*Kəssə hər kim tökülən qan izini,*
*Qurtaran dahi odur yer üzünü.*
...

Bax səh. 4

## Ai missiyası üçün yolun sonu



Bax səh. 5

## Etibarlı müttəfiq, sadiq tərəfdaş...

Bax səh. 5

## Dayanıqlı iqtisadi inkişaf göstəriciləri

Bax səh. 6

## Elektron pul dövriyyəyə çıxır

Bax səh. 6

## Diplomatiyamızın parlaq siyasi triumfu

Azərbaycan Prezidenti cənab İlham Əliyevin ABŞ Prezidenti Donald Trampın dəvəti ilə ötən həftə Vaşinqtona etdiyi işgüzar səfər bütün siyasi çevrələrdə çox düzgün olaraq respublikamızın diplomatiya tarixinin ən mühüm hadisələrindən biri kimi nəzərdən keçirilir. Azərbaycanı bir daha dünyaya yaxından tanıdan, onun beynəlxalq nüfuzunu və mövqelərini əhəmiyyətli dərəcədə möhkəmləndirən, Azərbaycanla Ermənistan arasında aparılan sülh prosesini hüquqi baxımdan gücləndirən bu səfər diplomatiyamızın parlaq siyasi triumfu kimi tarixə düşdü.

Öncə onu qeyd edim ki, Prezident İlham Əliyevin səfəri Azərbaycan-ABŞ münasibətlərində yeni inkişaf mərhələsinin əsasını qoydu. Məlum olduğu kimi C. Baydenin ABŞ-a rəhbərlik etdiyi dövr istisna olmaqla, Bakı ilə Vaşinqton arasında münasibətlər normal axarda davam edib. İki dövlət enerji sferasında, beynəlxalq terrorçuluğa qarşı mübarizədə və digər sahələrdə fəal və səmərəli əməkdaşlıq həyata keçiriblər. Donald Trampın ABŞ-a birinci rəhbərliyi dövründə - 2020-ci ildə Azərbaycan ərazilərini döyüş yolu işğaldan azad edib və o zaman Ağ Ev bununla bağlı ümumən neytral mövqe nümayiş etdirib.

Lakin Baydenin rəhbərliyi dövründə Azərbaycan-ABŞ münasibətlərində dərin siyasi böhran yaranmışdı. Xüsusən antiterror...

Bax səh. 3



## Ai dəvətli deyil...

Bax səh. 7




## 100 ildən çox davam edən mübahisə...

Bax səh. 7

# Sülh müqaviləsinin mətninin müəllifi Azərbaycandır



Avqustun 12-də Albaniya Respublikasının Prezidenti Bayram Beqay Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Prezidentin Mətbuat Xidmətinin məlumatına görə, Bayram Beqay Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması, həmçinin ABŞ Prezidentinin şahidliyi ilə bəyannamənin və digər sənədlərin imzalanması ilə bağlı dövlətimizin başçısını təbrik edib. O, bu prosesdə nümayiş etdirdiyi əzmə və liderliyə görə Azərbaycan Prezidentinin rolunu xüsusi vurğulayıb. Eyni zamanda, Bayram Beqay ABŞ Prezidentinin prosesə verdiyi dəstəyi yüksək qiymətləndirib.

Prezident İlham Əliyev təbriklərə görə təşəkkürünü bildirib. Dövlətimizin başçısı regionda sülh gündəliyinin təşəbbüskarının və sülh müqaviləsinin mətninin müəllifinin də məhz Azərbaycan olduğunu vurğulayıb, Vaşinqtonda keçirilmiş görüş əsnasında qəbul edilmiş sənədlərin sülh gündəliyinin irəli aparılması baxımından önəminə toxunub. Prezident İlham Əliyev bu prosesə göstərdiyi dəstəyə görə ABŞ Prezidentinin rolunu qeyd edib.

Telefon söhbəti zamanı Azərbaycan ilə Albaniyanın beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlığı və qarşılıqlı dəstəyi yüksək qiymətləndirilib.

# Yeni Yol Xəritəsi...

## Strateji Tərəfdaşlıq Xartiyası iqtisadi-investisiya əməkdaşlığında mühüm səhifə açacaq

Prezident İlham Əliyevin ABŞ Prezidenti Donald Trampın dəvəti ilə Vaşinqtonda işgüzar səfərdə olması ikitərəfli münasibətlərdə yeni səhifə açan hadisə kimi tarixə yazıldı. Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında yeni strateji müttəfiqlik üçün möhkəm təməllərin qurulması dayanıqlı inkişaf perspektivlərini təmin etmiş olur. Prezidentlərin imzaladığı "Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında" Anlaşma Memorandumu çoxistiqamətli yol xəritəsi hesab edilə bilər.

### Sadiq və etibarlı enerji müttəfiqi

Strateji Tərəfdaşlıq Xartiyası üzrə Memorandum iqtisadi-ticari-enerji sahəsində 30 illik əməkdaşlığın yeni və mühüm səhifəsini açır. Bu, həm də indiyə qədər iqtisadi və enerji-kommunikasiya proqramlarında birgə iradənin müasir çağırışlar fonunda daha da irəliyə aparılması üçün niyyət və məramları əks etdirir. Prezident İlham Əliyevin bəyan etdiyi kimi, ikitərəfli münasibətlər yeni pilləyə qalxır və strateji tərəfdaşlığımız başlayır. İki dövlət arasında iqtisadi baxışların qətiyyətli dövrünü xarakterizə edən enerji əməkdaşlığı da yeni dövrə qədəm qoyur.

ABŞ Azərbaycanın etibarlı enerji müttəfiqidir. 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi"ndə ABŞ-ın "Chevron", "ExxonMobil" neft şirkətləri təmsil olunub, SOCAR-la bir neçə neft yataqlarının istismarı ilə bağlı müqavilələr imzalanıb. Tərəflər arasında səmərəli iqtisadi kommunikasiya, eyni zamanda böyük bir regional-coğrafi arxitekturada dərin əməkdaşlıq alyanslarını formalaşdırıb.

Azərbaycan-ABŞ enerji tərəfdaşlığı həm də region və Avropa ölkələrinin enerji təhlükəsizliyində mühüm rol oynayan töhfəverici amildir. Ötən 30 ildə neft-qaz sahəsində beynəlxalq əhəmiyyətli layihələrin icra olunması, təşəbbüslərin dəstəklənməsi əməkdaşlıq imkanlarının hədsiz güclü potensialından xəbər verir. Vaşinqtonun güclü dəstəyi sayəsində Xəzər regionunun ətraf coğrafiyalarla tranzitləri möhkəmlənib, irimiqyaslı enerji layihələrinin həyata keçirilməsi, Şərq-Qərb enerji dəhlizlərinin formalaşması üçün BTC, TANAP, TAP kimi qlobal layihələrin ərsəyə gəlməsi mümkün olub. Cənub Qaz Dəhlizinin ərsəyə gəlməsində Donald Trampın birinci prezidentlik dövründə verdiyi davamlı dəstək müstəsna rol oynayıb. Məhz bu səmimiyyət və qarşılıqlı anlaşma, dostluq ruhunda tamamlanan bu trans-kontinentla enerji layihələri bütün dövlətlərin tükənməz rifah və enerji intibahına xidmət etməklə, ABŞ-Azərbaycanın enerji diplomatiyasının birgə uğur salnaməsi kimi yadda qalıb.

### ABŞ yeni neft yatağında...

Səfər çərçivəsində SOCAR və "ExxonMobil" korporasiyası arasında "Əməkdaşlıq haqqında Memorandum" imzalanması 30 illik enerji salnaməsinin uğurlu davamını əks etdirir. Bu sənəd Vaşinqtonun ən nəhəng neft korporasiyasının Azərbaycanda yeni fəaliyyət planlarına start verməsi, Azərbaycanın Xəzərdə formalaşdırdığı müasir enerji həmrəyliyi halqasının daha da genişlənməsinə töhfəsi və regionda transkontinental enerji habının yaranmasına sarsılmaz dəstəyi kimi xarakterizə edilə bilər.

Anlaşma Memorandumu milli neft korporasiyaları arasında mövcud olan müsbət əlaqələri möhkəmləndirmək və Azərbaycanda həm qeyri-ənənəvi, həm də ənənəvi neft və qaz imkanlarının dəyərləndirilməsi istiqamətində potensial əməkdaşlıq sahələrini səfərbər edəcək. "Azəri-Çıraq-Günəşli" layihəsində tərəfdaş olan "Exxon" ötən dövrdə neft emalı və nəqli, enerji sektorunda müasir qazma texnologiyalarının tətbiqi, habelə resursların diversifikasiyasında mühüm faydalar verib. Bu baxımdan qarşıda tükənməyən daha perspektivli potensialların səfərbər olunmasında yeni səhifə açılır.

Prezident İlham Əliyev yeni sazişlərin əhəmiyyətinə toxunarkən "ExxonMobil" və SOCAR arasında əməkdaşlığa dair imzalanan memorandumun xüsusi əhəmiyyətindən bəhs edib. Bildirib ki, Azərbaycanda böyük neft yatağının kəşfi ehtimalı yüksəkdir. Son innovasiya dəyərləndirmələri üzrə tədqiqatların və geoloji təhlillərin nikbin nəticələri yeni karbohidrogen ehtiyatlarının kəşfinə işarə edir. Bu baxımdan dünyanın aparıcı enerji şirkəti olan, müasir texnologiyalar sahəsində böyük təcrübəyə malik "Exxon" şirkəti ilə yeni əməkdaşlıq bu kəşfi tezləşdirə bilər. Yeni karbohidrogen tədarüklərinə beynəlxalq maliyyə təşkilatı olan "EXIM Bank"ın qoşulması isə nəql infrastrukturunun şaxələnməsində potensial maliyyəni təmin edəcək.



### Süni intellekt, rəqəmsal texnologiyalar və "yaşıl iqtisadiyyat" quruculuğunda yeni dövr

Azərbaycan və ABŞ arasında strateji tərəfdaşlıq formatı qarşılıqlı investisiya, ticarət, rabitə, süni intellekt, tranzit, müdafiə və digər sahələri də əhatə edir. Ələlxüsus da, dördüncü sənaye inqilabının və süni zəka dövrünün tələbatlarına uyğun olaraq, startaplar, rəqəmsal texnologiyalar, innovasiyayönümlü sənaye layihələri, süni intellekt və "yaşıl iqtisadiyyat" transformasiya üzrə yaxından işləmək planları ön sırada dayanır. Yeri gəlmişkən, 907-ci düzəlişin üzərindən birdəfəlik üfüqi xəttin çəkilməsi ABŞ-Azərbaycan əlaqələrinin iqtisadi ritminə zərər verən bütün meyilləri də aradan götürür və ikitərəfli iqtisadi münasibətlərin çoxşaxəli gündəliyi yazılır.

Azərbaycanın iqtisadiyyat nazirinin SOCAR-ın prezidenti ilə birlikdə "SpaceX" şirkətinin və "EXIM Bank"ın rəhbər vəzifəli şəxsləri ilə keçirdiyi görüşləri zamanı Amerika investisiya klubunun yeni iqtisadiyyat və sənaye quruculuğunda Azərbaycana hərtərəfli dəstək vermək niyyəti ümidverici perspektivlər vəd edir. "EXIM Bank" kimi nəhəng qlobal maliyyə institunun davamlı dəstək niyyəti isə sərmayelərdə axının qapısını açacaq. Digər əməkdaşlıqlar da Amerikanın güclü iqtisadi dəstəyi və sərmayə təşviqləri sayəsində Azərbaycan iqtisadiyyatının şaxələndirilməsinə və yeni bilik və bacarıqları ehtiva edən sahələrin inkişafına möhkəm baza yaradacaq. 2024-cü ildə Azərbaycan və Amerika Birləşmiş Ştatları arasında ticarət dövriyyəsinin həcmi 1 milyard 752,9 milyon dollar təşkil edib. Bu rəqəmi daha da yüksəltmək üçün potensial böyükdür və yeni iqtisadi-investisiya niyyətlərinin gerçəkləşməsi əmtəə mübadiləsini ən azı 2 milyard dollara çatdıracaq. Nəticədə, Azərbaycan iqtisadiyyatında yüksək əlavə dəyər yaradan sahələrin formalaşması təmin olunacaq.

Beləliklə, 35 ilə yaxın tarixi olan ABŞ-Azərbaycan münasibətləri öz strateji zirvəsinə çatmaqdadır. Azərbaycan Prezidentinin və Donald Trampın ortaya qoyduğu sarsılmaz iradə və imzalanan sənədlər yaxın dost ölkələrin iqtisadi-ticari müttəfiqliyini möhkəmləndirməklə, çoxşaxəli əməkdaşlıqlara dərin zəmin yaradır.

### "Yaşıl enerji" ilə üst-üstə düşən strateji maraqlar

ABŞ Azərbaycanda enerjinin yeni gündəliyi olan "yaşıl hidrogen" və bərpaolunan enerji mənbələrinin tədarükü və nəqli proseslərinə də dəstək verərək fəal əməkdaşlığa can atır. Azərbaycanın "yaşıl enerji" üzrə nəql marşrutu da Şərq-Qərb xətti üzərində qurulub ki, bu da Vaşinqtonun dəstəklədiyi enerji konsepsiyasına uyğundur.

Hazırda enerji seqmentində bərpaolunan mənbələrin diversifikasiyası və nəqli perspekivləri üzrə faydalı əməkdaşlıq alyansında da ABŞ siyasi-iqtisadi dəstəyi və təşəbbüskarlığı ilə diqqəti cəlb edir. Yeni enerji kursu hər iki dövlətin maraqlarını tam əks etdirir - Azərbaycanın istehsal mənbələri üzrə əldə ediləcək "yaşıl enerji"nin diversifikasiyası da əvvəlki həmrəylik və dostluq strategiyası əsasında Avropa və ətraf ölkələrin ehtiyaclarına yönəlməklə böyük bir coğrafiyanın təmiz enerji tələbatlarını həll edəcək. Xəzər-Qara dəniz kabeli Türkiyə, Avropa və Mərkəzi Asiya bağlantılarını koordinasiya edərək "yaşıl enerji"nin qlobal interkonnektoruna çevriləcək.

### Orta Dəhlizdə Azərbaycan və ABŞ-ın ortaq maraqları

ABŞ şirkətlərinin Azərbaycanın azad edilmiş ərazilərində digər sahələrə investisiya qoyması üçün də imkanlar böyükdür. Hazırda bu ölkənin qeyri-hökumət təşkilatı Marşal Fondu Azərbaycanın ANAMA təşkilatına ərazilər minalardan təmizlənməsi işinə dəstək verir. Bu faktor da amerika şirkətlərinin ərazilərin minalardan təmizlənməsindən sonra həmin torpaqlarda əsası qoyulan aqrar, aqrar-sənaye, enerji layihələrində təmsil olunmasına stimul verə bilər.

Azərbaycan qlobal nəqliyyat-kommunikasiya-logistika landşaftının ən nəhəng coğrafi tranziti olan Orta Dəhlizin ən etibarlı mərkəzlərindən birinə çevrilir, Şərq-Qərb istiqamətində daşınmaların tranzit qovşağı kimi beynəlxalq daşınmaların axıcılığını təmin edir. Bu gün beynəlxalq ticarət icması, ələlxüsus da ABŞ Azərbaycanın bu geostrateji və coğrafi mövqeyinin əhəmiyyətliliyini nəzərə alaraq Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun yaradılmasında xüsusi dəstək verir, daha güclü mövqelərə malik tranzit ölkəyə çevrilməyə çalışır. Prezident İlham Əliyevin "Biz istəyirik ki, ərazimizdən keçən dəhlizlər yükdaşımalarda daha fəal iştirak etsin. Bu, pul gətirir, iş yerləri yaradır, siyasi təsir yaradır" fikri də məhz Orta Dəhliz landşaftında ölkəmizin strateji yerinin daha da gücləmnəsinə xidmət edən baxışı əks etdirir.

**ELBRUS CƏFƏRLİ**

# Diplomatiyamızın parlaq siyasi triumfu

Azərbaycan Prezidenti cənab İlham Əliyevin ABŞ Prezidenti Donald Trampın dəvəti ilə ötən həftə Vaşinqtona etdiyi işgüzar səfər bütün siyasi çevrələrdə çox düzgün olaraq respublikamızın diplomatiya tarixinin ən mühüm hadisələrindən biri kimi nəzərdən keçirilir. Azərbaycanı bir daha dünyaya yaxından tanıdan, onun beynəlxalq nüfuzunu və mövqelərini əhəmiyyətli dərəcədə möhkəmləndirən, Azərbaycanla Ermənistan arasında aparılan sülh prosesini hüquqi baxımdan gücləndirən bu səfər diplomatiyamızın parlaq siyasi triumfu kimi tarixə düşdü.

Öncə onu qeyd edim ki, Prezident İlham Əliyevin səfəri Azərbaycan-ABŞ münasibətlərində yeni inkişaf mərhələsinin əsasını qoydu. Məlum olduğu kimi C. Baydenin ABŞ-a rəhbərlik etdiyi dövr istisna olmaqla, Bakı ilə Vaşinqton arasında münasibətlər normal axarda davam edib. İki dövlət enerji sferasında, beynəlxalq terrorçuluğa qarşı mübarizədə və digər sahələrdə fəal və səmərəli əməkdaşlıq həyata keçiriblər. Donald Trampın ABŞ-a birinci rəhbərliyi dövründə - 2020-ci ildə Azərbaycan ərazilərini döyüş yolu ilə işğaldan azad edib və o zaman Ağ Ev bununla bağlı ümumən neytral mövqe nümayiş etdirib.

Lakin Baydenin rəhbərliyi dövründə Azərbaycan-ABŞ münasibətlərində dərin siyasi böhran yaranmışdı. Xüsusən antiterror əməliyyatlarından sonra Bayden-Blinken administrasiyası Azərbaycanın yaratdığı reallıqlara qarşı çıxır, respublikamızı Ermənistana hərbi təcavüz cəhdində ittiham edirdi. Azərbaycanın guya Ermənistana hücum edəcəyi ilə bağlı şayiələri yayan siyasi ünvanlardan biri məhz Bayden-Blinken administrasiyası idi. Vaşinqtonda Azərbaycan media nümayəndələrinin suallarını cavablandıran Prezident İlham Əliyev bu barədə söz açaraq deyib: “Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında quru əlaqəsi məsələsinə gəlincə deməliyəm ki, son beş ildə müxtəlif ölkələrin liderlərindən nə qədər şayiələr və təxribatlar eşitdik. Guya Azərbaycan Ermənistana hücum etməyi planlaşdırır, guya həmin ərazini güc yolu ilə ələ keçirmək niyyətindədir. Bizim bütün bunlar barədə təkzib mesajlarımız işə yaramadı, çünki bu təsəvvür artıq formalaşdırılmışdı, o cümlədən burada - Vaşinqtonda”.

Bayden administrasiyasının dövründə Azərbaycandan rəsmi nümayəndə heyətlərinin ABŞ-a səfərlərinə məhdudiyyət tətbiq edilmişdi. Hətta ABŞ-da müxtəlif səviyyələrdə Azərbaycana qarşı sanksiyaların da tətbiq olunması barədə təşəbbüslər səslənirdi. Bunların hamısı Azərbaycanı öz haqq yolundan döndərmək niyyəti daşıyırdı. Belə hallarla biz müstəqillik tariximizdə çox rastlaşmışıq. Lakin tarixi reallıqlar həm də ondan xəbər verir ki, Azərbaycanı öz yolundan döndərmək mümkün deyil. Bu baxımdan qürurla qeyd etməliyik ki, Bayden administrasiyasının anti-Azərbaycan fəaliyyətinin qarşısında heç vaxt geri çəkilmədi və qətiyyətli siyasət yürüdərək milli maraq və mənafelərini layiqincə təmin etdi.

Artıq ABŞ rəhbərliyi dəyişib və ölkənin yeni administrasiyasının fəaliyyətinin fonunda özünü qabarıq göstərən həm də Ağ Evin dəyişən siyasətidir. Başqa cür desək, yeni administrasiya ABŞ milli maraqlarını dünyada ciddi şəkildə zədələyən yanlış siyasətdən imtina edib. Bu ilin əvvəlində USAİD-in bağlanması da təsdiqləyir ki, Tramp administrasiyası bu cür fəaliyyət mexanizmlərini qəbul etmir.

D.Trampın yenidən ABŞ Prezidenti seçilməsindən sonra Bakı ilə Vaşinqton arasında Bayden administrasiyasının Azərbaycana qarşı qərəzli münasibəti səbəbindən donmuş vəziyyətə düşən siyasi əlaqələr də yenidən canlanmağa başladı. Xatırladım ki, ABŞ-da keçirilən son prezident seçkilərindən hələ 3 ay öncə Şuşada təşkil olunan Qlobal Media Forumunda ABŞ-dakı seçkilərlə bağlı jurnalistin sualını cavablandıran Prezident İlham Əliyev böyük uzaqgörənlik və cəsarət nümayiş etdirərək o zaman prezidentliyə namizəd olan D.Tramp haqqında müsbət fikirlər söyləmiş, diplomatik dillə ifadə etsək, onun namizədliyini dəstəkləmişdi. Eyni zamanda Prezident İlham Əliyev bir neçə dəfə açıqlamalarında D.Trampın prezidentliyi dövründə ABŞ-ın heç bir müharibə başlatmadığını, o cümlədən D.Trampın ailə institutuna, ənənəvi dəyərlərə böyük önəm verdiyini qeyd etmişdir. Prezident İlham Əliyevin bu ilin iyulunda Xankəndidə keçirilən III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşü zamanı D.Tramp barəsində səsləndirdiyi fikirləri isə ABŞ lideri özünün rəsmi sosial hesabında paylaşmışdı. Bütün bunlar söyləməyə əsas verirdi ki, Azərbaycan-ABŞ münasibətlərində tezliklə yeni inkişaf mərhələsi başlayacaq.



Prezident İlham Əliyevin D.Trampın dəvəti ilə ABŞ-a avqustun 7-8-də etdiyi səfər deyilənlərin əyani təsdiqi oldu. Səfər zamanı imzalanan sənədlər qeyd etdiyim kimi Azərbaycan-ABŞ münasibətlərinin inkişafında yeni keyfiyyət mərhələsinin başlanmasını nümayiş etdirir. Bu sırada iki ölkənin prezidentləri tərəfindən imzalanan “Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumu”nu xüsusi qeyd etməliyik. Azərbaycanla ABŞ arasında qarşılıqlı maraq kəsb edən sahələrdə strateji tərəfdaşlığın gücləndirilməsinə xidmət Anlaşma Memorandumuna əsasən Strateji Tərəfdaşlıq Xartiyasının növbəti 6 ay ərzində hazırlanması məqsədilə iki ölkə arasında Strateji İşçi Qrupu yaradılması nəzərdə tutulur. Strateji İşçi Qrupu çərçivəsində enerji, ticarət və tranzit daxil olmaqla regional bağlantılar, süni intellekt və rəqəmsal infrastruktur daxil olmaqla iqtisadi sərmayə, eləcə də müdafiə, təhlükəsizlik və terrorla mübarizə kimi sahələrin prioritetləşdirilməsi planlaşdırılır. Bu, ikitərəfli praktiki əməkdaşlıq üçün institusional çərçivənin təsis edilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Prezident İlham Əliyev Ağ Evdə mətbuata bəyanatla çıxışında Azərbaycanla ABŞ arasında strateji tərəfdaşlığın artıq başladığını bildirərək deyib: “Biz həqiqətən də yeni tarixi səhifəyə imza atırıq. Eyni zamanda, ABŞ və Azərbaycan arasındakı ikitərəfli münasibətlər yeni pilləyə qalxır və biz strateji tərəfdaşlığımız artıq başlayır. Bu istiqamətdə bir neçə ay ərzində sənədlər və bütün mətnlər hazırlanacaq. Azərbaycan üçün bu, tarixi nailiyyətdir. Çünki bu gün strateji tərəfdaşlıq kontekstində dünyanın ən böyük ölkəsi ilə əlaqələr qurulur”.

Səfər çərçivəsində Azərbaycan Prezidentinin və ABŞ Prezidentinin xüsusi elçisinin iştirakı ilə SOCAR və “ExxonMobil” korporasiyası arasında “Əməkdaşlıq haqqında Memorandum” da imzalanıb. Bu sənəd Azərbaycanla ABŞ arasında enerji sahəsində əməkdaşlığı daha da gücləndirəcək və Prezident İlham Əliyevin bildirdiyi kimi əhəmiyyətli bir layihə ilə nəticələnəcək.

Prezident İlham Əliyevin Vaşinqtona səfəri zamanı Azərbaycan-ABŞ münasibətlərinin inkişafı istiqamətində atılan mühüm addımlardan biri də ABŞ Prezidentinin Azadlığa Dəstək Aktına 907-ci düzəlişin tətbiqinin dayandırılması barədə sərəncam imzalanması oldu. Azərbaycan-ABŞ münasibətlərində keçmişin mənfi mirası olan 907-ci düzəlişin tətbiqinin D.Tramp tərəfindən məhz Prezident İlham Əliyevlə görüş çərçivəsində dayandırılması əhəmiyyətli rəmzi məna daşıdı, ABŞ-ın Azərbaycanla əlaqələrin inkişafına verdiyi önəmin təcəssümünə çevrildi.

Xatırladım ki, 1992-ci ilin oktyabrında erməni lobbi qruplarının təsiri altında olan konqresmenlərin təşəbbüsü ilə Azadlığa Dəstək Aktına 907-ci düzəlişin qəbul edilməsi ölkəmizi ABŞ-ın birbaşa dəstəyindən məhrum etmiş və respublikamız sanksiyalara məruz qalmışdı. ABŞ-ın Əfqanıstanda dəstəyə ehtiyacı olduğuna görə və Azərbaycan bu dəstəyi verdiyi üçün sonradan bu düzəliş hər il müvəqqəti olaraq dayandırılırdı. 2023-cü ildə ABŞ tərəfindən 907-ci düzəlişin yenidən tətbiq olunması Bayden-Blinken cütlüyünün Azərbaycana olan qərəzli münasibətin göstəricisi idi.

Bu gün Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə elə bir bir inkişaf mərhələsinə yüksəlib ki, həm də donor ölkəyə çevrilib. Ona görə Azərbaycanın hansısa xarici dəstəyə və yardıma ehtiyacı yoxdur. Bununla belə Prezident Trampın bu qərarı rəmzi xarakter daşımaqla yanaşı, həm ədalətin bərpası, həm də Tramp tərəfindən Azərbaycan edilən siyasi jest oldu.

Bütövlükdə, Prezident İlham Əliyevin Vaşinqtona səfərinin yekunları Azərbaycan-ABŞ münasibətlərinin keyfiyyətcə yeni dövrə qədəm qoymasına xidmət edən nüanslarla zəngin oldu. Ona görə bu səfərin nəticələri həm də Azərbaycanın xarici siyasətin mühüm uğurlarıdır. Prezident İlham Əliyev Vaşinqtonda Azərbaycanın media nümayəndələrinə müsahibəsində səfərin hər bir uğurunu tarixi hadisə adlandıraraq deyib: “Təbii ki, 907-ci düzəlişin ləğv olunması, hesab edirəm ki, tarixi hadisədir. Artıq strateji əməkdaşlıq formatına başlamağımız da hesab edirəm ki, tarixi hadisədir. Ona görə mən səfərin nəticələrindən çox məmnunam və əminəm ki, bu səfərin konkret nəticələri yaxın gələcəkdə özünü büruzə verəcək”.

Səfərlə bağlı bir məqamı da qeyd etmək yerinə düşər ki, Azərbaycan və ABŞ prezidentlərinin Ağ Evdəki görüşünün səmimi və dostluq ovqatında keçməsi, Azərbaycan nümayəndə heyətinə göstərilən yüksək münasibət, dövlətimizin başçısına hədiyyənin və Ağ Evin rəmzi açarının təqdim olunması D.Trampın cənab İlham Əliyevə olan böyük ehtiramının və Azərbaycana verdiyi önəmin göstəricisinə çevrildi. Etiraf edək ki, heç də bütün dövlət və hökumət başçıları Ağ Evdə belə səviyyədə qarşılanmır. Və ya ABŞ rəhbərliyi heç də hamıya bu cür səmimi münasibət göstərmir. Prezident D. Tramp özü də qeyd etdi ki, Ağ Evin rəmzi açarını nadir hallarda təqdim edir.

Prezident İlham Əliyevin ABŞ-a səfəri Azərbaycan-ABŞ münasibətlərində irəliyə doğru mühüm addımların atılması ilə yanaşı, Azərbaycanla Ermənistan arasındakı normallaşma prosesi və sülh sazişinin imzalanması kontekstində indiyədək əldə olunmuş bütün nəticələrin fövqündə, zirvəsində dayanan tarixi razılaşmaların əldə edilməsi ilə əlamətdar oldu. Ona görə Azərbaycan Prezidenti və Ermənistan Baş nazirinin Vaşinqtonda D.Trampın iştirakı ilə keçirdikləri görüş Zirvə görüşü də adlandırılır. Bu görüş zamanı Vaşinqtonda “Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş” layihəsinin paraflanması iki dövlət arasında sülhün təmin edilməsi istiqamətində indiyə qədər atılmış ən mühüm addımdır. Saziş layihəsini paraflamaqla Ermənistan onun mətni ilə razı olduğunu ABŞ-ın iştirakı ilə hüquqi çərçivədə təsdiq etdi.

Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanmasına dair təklif və təşəbbüs ilk olaraq rəsmi Bakı tərəfindən irəli sürülüb. Hazırda razılaşdırılmış saziş layihəsinin mətni də Azərbaycanda yazılıb. O da məlumdur ki, 44 günlük müharibədən sonrakı dövrdə Ermənistan hakimiyyəti Azərbaycanın təşəbbüslərinə adekvat cavab verməkdən yayınır, o cümlədən hərbi təxribatlarla bu prosesə qarşı çıxmağa çalışırdı. Bu məsələdə Fransanın, ABŞ-ın əvvəlki rəhbərliyinin antiazərbaycançı mövqeyi və regionda yaranmış reallıqları qəbul etməmələri, habelə Ermənistandakı revanşizmə, Qarabağdakı separatizmə dəstək vermələri də xüsusi rol oynayırdı. Lakin 2023-cü ilin antiterror əməliyyatından sonra Ermənistanın artıq reallıqlarla barışmaqdan başqa yolu qalmadı və bir neçə ay əvvəl rəsmi İrəvan sülh sazişinin bütün maddələri ilə razı olduğunu bəyan etdi. Sülh sazişinin paraflanması ilə həm də Qərbdə Azərbaycanı Ermənistana hücum etməkdə ittiham edənlərin, ölkəmizə iftira atanların bütün bu əsassız və qərəzli arqumentləri əllərindən alındı.

Sülh sazişinin imzalanmasına gedən yolda Vaşinqtonda əldə olunan daha bir hüquqi razılaşma Azərbaycan və Ermənistanın xarici işlər nazirləri tərəfindən ATƏT-in Minsk Prosesinin, ATƏT-in fəaliyyətdə olan sədrinin Minsk konfransının müzakirəsində olan münaqişə üzrə şəxsi nümayəndəsi və Yüksək Səviyyəli Planlaşdırma Qrupunun bağlanması barədə ATƏT-in fəaliyyətdə olan sədrinin ünvanına birgə müraciət məktubunun imzalanmasıdır. Minsk qrupunun ləğvi Azərbaycanın sülh sazişinin imzalanması istiqamətində Ermənistan qarşısında qoyduğu iki əsas şərtdən biridir. ABŞ-da Azərbaycan və Ermənistanın xarici işlər nazirləri tərəfindən birgə müraciətin imzalanması ilə rəsmi İrəvan bu şərtlərdən birini yerinə yetirmiş oldu.

Minsk qrupu Azərbaycanın 44 günlük müharibədəki qələbəsindən sonra öz fəaliyyətini faktiki olaraq dayandırmışdı. Bu strukturun ATƏT tərəfindən ləğvindən sonra isə Ermənistanda və ondan kənardakı revanşistlərin, erməni lobbisinin və bütövlükdə antiazərbaycançı dairələrin yapışacaqları hansısa hüquqi istinad yeri olmayacaq.

Bundan sonra yekun sülh sazişinin imzalanması üçün Ermənistanın yerinə yetirməli olduğu yalnız bir şərt qalır. Bu da Ermənistan konstitusiyasından Azərbaycana qarşı olan ərazi iddialarının çıxarılmasıdır. Prezident İlham Əliyevin Vaşinqtonda Azərbaycanın media nümayəndələrinə müsahibəsində bildirdiyi kimi bu dəyişikliklər ediləndən sonra artıq sülh sazişi istənilən vaxtda imzalana bilər: “Təbii ki, Ermənistanın, necə deyərlər, ev tapşırıqları da var. Bildiyiniz kimi, onların konstitusiyasında Azərbaycana qarşı ərazi iddiası məsələsi imkan vermədi ki, bu gün sülh sazişi imzalansın. Amma bu dəyişikliklər ediləndən sonra artıq sülh sazişi istənilən vaxtda imzalana bilər”.

Vaşinqton görüşünün nəticələrinə dair imzalanan Birgə Bəyannamə isə bütün müddəaları ilə tam şəkildə Azərbaycanın milli maraq və mənafelərini ifadə edir. Sənəddə yer alan bütün fikirlər Azərbaycanın sülh prosesi ilə bağlı irəli sürdüyü prinsiplərə tam uyğundur. Birgə Bəyannamədə “Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş” layihəsinin paraflanması ilə bağlı müddəa çərçivəsində, Sazişin imzalanması və ratifikasiyasına nail olmaq üçün əlavə tədbirlərin görülməsinə ehtiyac olduğu təsbit edilib. Bunlardan başqa sənədə əsasən tərəflər BMT Nizamnaməsi və 1991-ci il Almatı Bəyannaməsinə uyğun olaraq, keçmiş münaqişənin əsiri olmayan parlaq gələcək yoluna qədəm qoyulmasına olan ehtiyacı qəbul edirlər.

Bəyannamədə Azərbaycanın əsas hissəsi və onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantının təmin olunması ilə bağlı müddəanın yer alması da respublikamızın milli maraqlar müstəvisində qarşıya qoyduğu prinsipial hədəfinə çatması deməkdir. Sənəddə təsbit olunan “Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu” (TRIPP) Ermənistan ərazisi vasitəsilə Azərbaycanın əsas hissəsi və onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantının təmin edilməsi məqsədilə ABŞ tərəfindən həyata keçiriləcək layihəni nəzərdə tutur. “Tramp yolu” adlanmasına baxmayaraq, söhbətin Zəngəzur dəhlizindən getdiyi aydındır. Beləliklə, Prezident İlham Əliyevin 44 günlük müharibədən sonra qarşıya qoyduğu daha bir milli məqsəd həyata vəsiqə almaq üzrədir.

Ötən 5 ilə yaxın dövr dövlətçiliyimizi və müstəqilliyimizi xüsusilə şərəfləndirən çoxsaylı hadisələrlə zəngindir. Cənab Prezident İlham Əliyevin uzaqgörən və qətiyyətli siyasətinin nəticəsi olaraq torpaqlarımızın işğaldan azad olunması, Qarabağda erməni separatçılığına son qoyulması, bütün ərazilərimiz üzərində milli suverenliyimizin tam təmin edilməsi tariximizin qürur doğuran səhifələridir. İkinci Dünya Müharibəsinin başa çatmasından ötən dövrdə Azərbaycan istisna olmaqla, hansısa dövlətin birmənalı qalib olduğu savaş yoxdur.

Vaşinqtonda Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması ilə bağlı atılan nəticəyönümlü addımlar, sülh sazişinin paraflanması, Birgə Bəyannamənin imzalanması və dünyanın ən qüdrətli dövlətinin bu prosesə həm dəstək verməsi, həm də şahidlik etməsi Prezident İlham Əliyevin respublikamıza qazandırdığı növbəti tarixi və diplomatik nailiyyətdir. Göründüyü kimi, tarixi ədaləti güc yolu ilə bərpa edən Müzəffər Ali Baş Komandan, qətiyyətli siyasəti ilə diplomatik müstəvidə də respublikamıza qələbələr qazandırır, Vətən müharibəsində yaratdığı reallıqların qlobal səviyyədə tanınmasına nail olur, regionda sülhü bərqərar edir. “Nəyi necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm” deyən cənab Prezident İlham Əliyev özünün siyasi erudisiyası ilə Azərbaycanı milli hədəflərinə layiqincə çatdırır.



*Ziyafət ƏSGƏROV,*
*Azərbaycan Respublikası*
*Milli Məclisinin Sədr müavini*

# Nobel Sülh Mükafatı kimə verilməlidir?

**İlham Əliyev: Bəs əgər Nobel Sülh Mükafatı Prezident Trampa verilməsə, kimə verilməlidir? Mən heç bir iş görməmiş, lakin mükafat almış şəxslərlə bağlı Nobel Sülh Mükafatının çox müəmmalı qərarlarının tarixinə varmaq istəməzdim. Lakin Prezident Tramp altı ay ərzində möcüzə yaratdı. Bir sözlə, düşünürəm ki, erməni həmkarım da dəstəkləyəcək. Auditoriyanın reaksiyasından hesab edirəm ki, biz qayıdan kimi birgə məktubun hazırlanması üzərində razılığa gələcəyik.**

İnsanların həyatına qan-qada, ölüm-itim gətirən, şirin arzuları puç edən, qurulu şəhərləri, tarixə şahidlik etmiş sivilizasiyaları dağıdan, xalqlar arasında düşmənçilik yaradan müharibələr dünyada hər zaman ciddi narahatlıqlar yaradıb. Bu gün isə beynəlxalq səviyyədə müharibə mövzusunun aktuallığı heç vaxt olmadığı qədər artıb ki, bu da ayrı-ayrı regionlarda eyni vaxtda qanlı müharibələrin alovlanması ilə bağlıdır. Açıq deyək ki, dünya yeni qlobal müharibənin astanasına gəlib çatıb. Narahatlıq doğuran ən mühüm məqam ondan ibarətdir ki, yeni dünya müharibəsinin ənənəvi müharibələrdən kəskin şəkildə fərqlənəcəyinin proqnozları verilir. Belə görünür ki, top-tüfəng, tank, piyadalar kimi resurslarla aparılan müharibə dövrü də keçmişə qovuşmaqdadır. İndi müharibələr daha güclü dağıdıcı gücə malik uzaq mənzilli, hipersəs sürətli innovativ texnikalar vasitəsi ilə aparılır. Ən qorxulusu və dəhşətlisi isə odur ki, ayrı-ayrı güc mərkəzləri, bəzi siyasətçilər bəşəriyyətə əzələ nümayiş etdirərək dünyanı nüvə silahları ilə hədələyirlər.





## İlham Əliyevi və Donald Trampı birləşdirən əsas cəhət - hər iki lider müharibəyə "yox" deyir

Təsvir olunan reallıq fonunda dahi Azərbaycan şairi Hüseyn Cavidin aşağıdakı misraları yada düşür:

*Kəssə hər kim tökülən qan izini,*
*Qurtaran dahi odur yer üzünü.*

Bəs bizim zəmanəmizin Yer üzünü bəlalardan qurtaracaq dahisi kim ola bilər? Açığı, son vaxtlaradək dünya siyasətçiləri arasında belə bir sima fərqlənmirdi. Dünyanın bir nömrəli supergüc dövləti olan Amerika Birləşmiş Ştatlarının (ABŞ) sabiq Prezidenti Co Baydenin özü əslində müharibənin içində idi. ABŞ-ın indiki Prezidenti Donald Trampın bildirdiyi kimi, Rusiya-Ukrayna müharibəsini məhz Bayden başlatdırıb. Bundan başqa, C.Baydenin prezidentliyi dönəmində onun ölkəsi Yaxın Şərqdə, o cümlədən də Qəzzada yaşananların bu və ya digər formada iştirakçısı olub. Digər bir güc mərkəzi olan Rusiya artıq üç ildən çoxdur ki, müharibə tərəfidir. Rusiya-Ukrayna müharibəsində də hər gün insanlar həyatını itirir. Belə bir vəziyyətdə Birləşmiş Millətlər Təşkilatından gözləntilər də çox deyil. Qurumun artıq dişsiz, gücsüz bir təşkilata çevrildiyi müxtəlif səviyyələrdə etiraf olunur. Təhlükəsizlik Şurası beş ölkənin girovluğunda qalıb, buna görə də ədalətli qərarlar verilmir. Kədərli haldır ki, BMT Baş katibinin ayrı-ayrı regionlarda tüğyan edən müharibələrin dayandırılması ilə bağlı çağırışları əsla eşidilmir.

Bu kimi kədərli reallıqlar fonunda ABŞ-ın yeni Prezidenti Donald Tramp tamam fərqli bir rakusdan diqqət mərkəzinə gəlib. O hələ ötən il seçkiqabağı təbliğat dönəmində sülh təşəbbüslərindən çıxış edir, seçiləcəyi təqdirdə Rusiya-Ukrayna müharibəsini, digər münaqişələri qısa müddətdə bitirəcəyini bildirirdi. Yeri gəlmişkən, D.Trampın seçkiqabağı dönəmdə sülh, barışıq mövqeyindən çıxış etməsi Azərbaycan Prezidenti İlham Əliyevin də diqqətini çəkmişdi. Dövlətimizin başçısı ABŞ-dakı seçkilərlə bağlı Ona ünvanlanan suallı cavablandırarkən, D.Trampa xüsusi rəğbətini bildirmiş, onun sülh mövqeyindən çıxış etməsini alqışlamışdı. Bu, o anlama gəlir ki, prezidentlər İlham Əliyev və Donald Tramp müharibələrə "yox" deyən siyasətçilərdirlər. Paralellər aparmaq üçün daha bir məqama diqqət yetirək: Bir qədər bundan əvvəl D.Tramp özünün sosial şəbəkə hesabında Prezident İlham Əliyevin III Şuşa Qlobal Media Forumundakı çıxışından bir hissəni paylaşıb. Dövlətimizin başçısı forumda sualları cavablandırarkən regionda və dünyada qalıcı sülhə çağırışlar edib, həmçinin D.Trampı "müharibə başlamayan ABŞ Prezidenti" kimi səciyyələndirib. Məlumdur ki, ABŞ prezidenlərinin əksəriyyətinin idarəçiliyi dönəmində bu ölkə dünyanın ayı-ayrı regionlarında qanlı müharibələrə cəlb olunub. D.Tramp isə tarixdə müharibə deyil, sülh prezidenti kimi qalmaq istəyir. Təsadüfi deyildir ki, müxtəlif dairələrdən onun Nobel Sülh Mükafatına namizədliyi irəli sürülüb. İlham Əliyevin sülh çağırışları D.Trampın dünyaya sülh gətirmək istəyi ilə üst-üstə düşür və bu səbəbdən də o, sosial şəbəkə hesabında bəhs olunan paylaşımı edib.

## Alovlanan müharibələr, Trampın səyləri və ümid yaradan nəticələr

D.Tramp Ağ Evdə yenidən fəaliyyətə başlayandan bəri ayrı-ayrı regionlardakı müharibələrin dayandırılması onun gündəliyində dayanan bir nömrəli məsələ olub, desək, yanılmarıq. Düzdür, o, Rusiya-Ukrayna müharibəsini qısa müddətdə bitirəcəyinin vədini versə də, hələlik buna nail olmayıb. Bu, ilk növbədə müharibənin son dərəcə kəskin və ziddiyyətli olması ilə bağlıdır. D.Tramp isə səylərini əsirgəmir və müharibəni hansı yollasa bitirəcəyinə əmindir. Bundan ötrü o, müxtəlif taktikalara əl atır. Başlanğıcda "yumşaq güc" diplomatiyasına üstünlük verən D.Tramp sonradan Rusiyanın artan aqressiyasını nəzərə almaqla sərt ritorikaya keçid etdi. O, Kremli sülh masasına çəkmək üçün əvvəlcə 50 gün vaxt verdiyini bildirsə də, sonradan Rusiya ordusunun Ukraynaya hücumları intensivləşdirməsi fonunda möhlət müddətini 10 günədək qısaltdı. Bu təzyiqlərin nəticəsi olaraq Kremldə Rusiya lideri Vladimir Putinlə ABŞ Prezidentinin xüsusi nümayəndəsi Stiven Uitkoff arasında kritik bir görüş baş tutdu. Həmin müzakirələrdə D.Trampla V.Putinin görüşü razılaşdırıldı. Müharibənin taleyini həll edəcək müzakirələrin aparılacağı görüşün bu həftə Alyaskada baş tutacağı gözlənilir.

Azərbaycan Prezidenti İlham Əliyevin bu günlərdə ABŞ-a baş tutan uğurlu səfəri çərçivəsində keçirilən tədbirlərdə D.Trampın birbaşa müdaxiləsi sayəsində səngiyən digər müharibələrə diqqət çəkilib. Bunlardan biri iyul ayında yenidən qızışan, müharibə müstəvisinə keçən Kamboca - Tailand münaqişəsidir. Medianın məlumatına görə, mina insidentindən sonra mübahisəli ərazidə iki ölkənin hərbçiləri arasında atışma olub. Tailand Səhiyyə Nazirliyinin yaydığı məlumata əsasən, Kambocanın hücumları nəticəsində azı 11 mülki vətəndaş həlak olub, onlarla insan yaralanıb.

Eyni zamanda, Kambocanın Tailandla sərhəddə yerləşən Oddar Meançey əyalətində sərhəd münaqişəsinin kəskinləşməsi səbəbilə 30 minə yaxın insan öz evlərini tərk edib. Yerli hakimiyyət orqanlarının açıqlamasına görə, məcburi köçkünlərin sayı 8 min ailəni ötüb. Münaqişə ocağı məhz D.Trampın birbaşa müdaxiləsi sayəsində səngiyib və tərəflər danışıqlar aparmağa razılaşıblar.

Bu il aprelin 22-də Pahalqamda (şəhər Kəşmirin hazırda Hindistanın nəzarətində olan ərazidə yerləşir) baş verən və 26 nəfərin ölümü ilə nəticələnən terror aktından sonra Hindistanla Pakistan arasında gərginlik son nöqtəsinə çataraq silahlı münaqişəyə çevrilib. Belə ki, mayın 7-nə keçən gecə Hindistan Hərbi Hava Qüvvələri Pakistanın nəzarətində olan Kəşmir vilayətinə, eləcə də bu ölkənin bir neçə böyük şəhərinə aramsız raket zərbələri endiriblər. Pakistan aviasiyası qarşı tərəfə adekvat aviazərbələrlə cavab verib. Pakistanla Hindistan arasında gərginliyin uzunmüddətli müharibəyə çevrilməsinin qarşısını da məhz D.Trampın "sehirli çubuğu" alıb. Başqa belə misallar da sadalamaq mümkündür.

## Otuz illik münaqişədən sonra Cənubi Qafqaza sülh gəlir

Bu günlərdə dünya tarixi anlara şahidlik etdi. Ağ Evdə D.Trampın vasitəçiliyi ilə Azərbaycanla Ermənistan arasında təxminən otuz il davam edən münaqişədə yeni bir səhifə açılmış oldu - iki ölkənin xarici işlər nazirləri tərəfindən ABŞ Prezidentinin şahidliyi ilə yekun sülh sazişi paraflandı. Bu, 44 günlük müharibədən sonra Azərbaycan Prezidentinin təşəbbüsü ilə başlayan sülhyaratma prosesində tarixi bir nailiyyətdir. İndiyədək buna çoxlu cəhdlər edilmişdi. Xatırlayaq ki, Ağ Evdə baş tutan son görüşlərədək müxtəlif formatlarda danışıqlar aparılıb. Bir vaxtlar Moskva, Brüsel, Vaşinqton formatları aktiv fazada idi. Lakin Vaşinqton formatı Bayden administrasiyasının Azərbaycana münasibətdə qərəzli mövqe tutmasına görə bir neçə görüşdən sonra yarımçıq dayandırıldı. Brüsel formatı çərçivəsində, xüsusilə də Fransanın Ermənistanın tərəfini saxlaması açıq-aşkar idi və buna görə də iflas açılmaz oldu. Həmçinin Moskva formatı da səmərəsizliyi ilə yadda qaldı. Belə ki, bu formatda fəaliyyətlər məsul şəxslərin görüşmələrindən və bəyanatlar səslendirmələrindən uzağa getmədi.

D.Trampın özü bugünlərdə Azərbaycanla Ermənistan arasında uzun sürən münaqişəni Rusiya-Ukrayna müharibəsi kimi mürəkkəb ədavət kimi səciyyələndirib. D.Tramp yeganə qlobal səviyyəli liderdir ki, Azərbaycanla Ermənistan arasında başlayan sülhyaratma prosesini məntiqi sonluğa istiqamətləndirməyə nail olub. Prezident İlham Əliyev Vaşinqtonda mətbuata verdiyi bəyanatında D.Trampa minnətdarlığını ifadə edərək bildirib: "Həqiqətən bu gün Azərbaycan xalqının yaddaşına həm qürur, həm də Prezident Trampa minnətdarlıq hissi ilə həkk olunacaq. Onun həm Azərbaycana olan münasibəti və təkcə bizim regionumuz deyil, - bu gün mən bunu fikir mübadiləmizdə qeyd etdim, - cəmi bir neçə ay ərzində Prezident Tramp Afrikada, Asiyada və nəhayət, Cənubi Qafqazda 30 il ərzində əldə oluna bilinməyəni təmin etdi. Biz insanların qurban verilməsi, böyük itkilər ilə nəticələnən iki çox ağır müharibə apardığımız olduq. Prezident Tramp və onun komandası, bizim yaxşı dostumuz Stiven Uitkoff olmasaydı, Ermənistan və Azərbaycan yəqin ki, hələ də sonsuz danışıqlar prosesində idilər".

Beləliklə, D.Trampın səyləri və vasitəçiliyi ilə Cənubi Qafqaza sülh gəlir. İki ölkənin əməkdaşlıq dönəminə başlayacağına böyük ümidlər yaranıb. Sülh sazişinin dünyanın bir nömrəli ofisində - oval kabinetdə D.Trampın şahidliyi ilə imzalanması böyük məsuliyyət yaradır. Çoxlarının bacarmadığını məhz o bacardı. Buna görə də Azərbaycanın və Ermənistanın da vəfa borcudur ki, D. Trampın Nobel Sülh Mükafatına namizədliyini irəli sürsünlər. "Bəs əgər Nobel Sülh Mükafatı Prezident Trampa verilməsə, kimə verilməlidir? Mən heç bir iş görməmiş, lakin mükafat almış şəxslərlə bağlı Nobel Sülh Mükafatının çox müəmmalı qərarlarının tarixinə varmaq istəməzdim. Lakin Prezident Tramp altı ay ərzində möcüzə yaratdı. Bir sözlə, düşünürəm ki, erməni həmkarım da dəstəkləyəcək. Auditoriyanın reaksiyasından hesab edirəm ki, biz qayıdan kimi birgə məktubun hazırlanması üzərində razılığa gələcəyik", - deyə Prezident İlham Əliyev vurğulayıb .

***Mübariz ABDULLAYEV***

# Aİ missiyası üçün yolun sonu

Bu günlərdə Vaşinqtonda Azərbaycan və Ermənistan xarici işlər nazirləri tərəfindən "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş" in paraflanması ilə Avropa İttifaqının (Aİ) Ermənistandakı missiyasının fəaliyyətinin dayandırılmasının zəruriliyi yenidən gündəmə gəlib. Sənəddə vurğulanır ki, Azərbaycan və Ermənistan qarşılıqlı sərhədə hər hansı üçüncü tərəfin qüvvələrini yerləşdirməyəcəklər.

Layihəyə əsasən, tərəflər qarşılıqlı sərhədin delimitasiyası və sonrakı demarkasiyasının başa çatmasına qədər, sərhəd bölgələrində təhlükəsizlik və sabitliyin təmin olunması məqsədilə, hərbi sahə də daxil olmaqla, qarşılıqlı razılaşdırılmış təhlükəsizlik və etimad-quruculuğu tədbirləri həyata keçirəcəklər. Beləliklə, Aİ-nin fəliyyətinin məqsədi bilinməyən missiyasının sərhədlərimizdə anlaşılmaz müşahidələr aparmaları ikitərəfli razılaşmaya əsasən mümkün olmayacaq, Ağ Evdə paraflanan saziş bunu hüquqi baxımdan mümkünsüz edir.

## Makronun bədnam layihəsi

Heç kəsə sirr deyil ki, bu missiya Makronun bədnam layihəsi idi. Məqsəd də Aİ-nin, Qərbin Ermənistanda hərbi mövcudluğunu təşkil etmək, kəşfiyyat işləri aparmaq, Ermənistanla Azərbaycan arasında münasibətləri gərginləşdirməkdir. Artıq iki tərəfin də qəbul etdiyi sülh gündəliyi var. Buna görə də Aİ missiyası fəaliyyətini dayandırmalıdlr.

Postmüharibə dövründə Azərbaycanın təşəbbüsü ilə əsası qoyulan sülhyaratma prosesində indiki səviyyəyə çatılanadək bir sıra çətin mərhələlərdən keçilib, Ermənistanın və bu ölkəni dəstəkləyən qüvvələrin, o cümlədən də Fransa kimi dövlətlərin manipulyasiya cəhdlərinin qarşısını almaq lazım gəlib. Aİ missiyasının zamanında Ermənistanda yerləşdirilməsi də məlum qüvvələrin sülh prosesini əngəlləmək cəhdlərindən biri idi. 2022-ci ilin oktyabrında Praqada baş tutan sammit çərçivəsində Ermənistan baş naziri Fransanın dəstəyi ilə iki ölkə arasındakı sərhədə Aİ-nin missiyasının göndərilməsini israr etdi. Sammitdə aparılan müzakirələrdən sonra Azərbaycanın razılığı əsasında Avropa İttifaqının qısamüddətli və məhdud tərkibli missiyasının Ermənistana göndərilməsinə qərar verildi. Həmin missiya üçün nəzərdə tutulan vaxt limiti 2022-ci ilin dekabrında tamamlandı. Bundan sonra Makronun təkidi ilə Ermənistan daha uzunmüddətli missiya istəyini gündəmə gətirdi və məlum adekvat qərar verildi. Bu dəfə missiyanın tərkibi 200 nəfərədək genişləndirildi və sonra daha bir neçə nəfər bu tərkibə əlavə edildi. Son dəyişikliklərə əsasən, missiyanın Ermənistanda qalma müddəti 2027-ci ilədək artırılıb.



## Mülki, yoxsa hərbi missiya?

Aİ-nin Ermənistandakı mülki adlandırılan missiyası barədə söhbət açanda, adətən, dəqiqləşdirməyə zərurət yaranır: Mülki, yoxsa hərbi missiya? Şübhələrin məntiqi əsası var. Bəli, missiya avantürasındakı qaranlıq məqamların üzə çıxması üçün çox gözləmək lazım gəlmədi. Bəlli oldu ki, Ermənistana mülki missiya adı altında əslində hərbiləşdirilmiş dəstələr göndərilib. Həmin missiyanın tərkibində Fransanın və Almaniyanın xüsusi xidmət orqanlarının təmsilçilərinin yer alması bunu əyani şəkildə təsdiqləyir. Məsələn, missiyaya rəhbərlik edən Markus Ritter kimdir? Onun tərcümeyi-halı bu sualın ən yaxşı cavabıdır. Markus Ritterin dosyesinə nəzər salanda onun polis adı altında fəaliyyət göstərən təcrübəli kəşfiyyatçı olduğu üzə çıxır. Bu şəxs 2004-2005-ci illərdə Kosovoda BMT missiyasının qərargah rəisi, 2007-2008-ci illərdə BMT-nin Gürcüstandakı müşahidə missiyasının qərargah rəisi, 2012-2013-cü illərdə Aİ-nin Cənubi Sudanda proqramlaşdırma və əməliyyatlar missiyasının şöbə müdiri, həmçinin 2017-2019-cu illərdə Aİ-nin Bağdaddakı məsləhət missiyasının rəhbəri vəzifələrində çalışıb. Aydındır ki, bu cür məsul tapşırıqların yerinə yetirilməsi xüsusi hazırlıq, kəşfiyyat bacarıqları tələb edir.

Aİ missiyasının "mülki" olmasına kölgə salan başqa bir məqama diqqət yetirək: Avropalı emissarlarla birgə fəaliyyətə cəlb olunanlar yerli personal da sırf hərbçilərdən ibarətdir. Belə ki, yerli personal, missiyayaya qoşulan məsləhətçilər qismində hazırda xidmətdə olan və yaxud istefaya getmiş erməni zabitlər və xüsusi xidmət orqanlarının əməkdaşları iştirak edirlər. Onların köməyi ilə missiyanın fəaliyyətinə Rusiyanın hərbi məktəblərində təhsil almış erməni hərbçilər cəlb olunur. Bütün bu kimi faktlar ortada ikən Ermənistanı dəstəkləyən Fransa kimi ölkələr və Aİ missiyasının rəhbərliyi riyakarlıq edərək kimi aldatmağa çalışırlar? Axı yalanlarla uzağa getmək mümkün deyil.

## Aİ-nin fəaliyyətində sual doğuran məqamlar

Aİ-nin Ermənistandakı missiyasının fəaliyyətində cavabı olmayan, suallar doğuran çoxsaylı məqamlar sadalamaq mümkündür. Əvvələ, qərarda missiyanın sərhəd ərazilərində fəaliyyət göstərəcəyi bildirilir. Burada söhbət hansı sərhədlərdən gedir? İndiyədək qalib Azərbaycan heç bir ilkin şərt irəli sürmədən iki ölkə arasında sərhədlərin delimitasiya və demarkasiyasının aparılmasını təkid etsə də, bu proses yubanır. Bugünədək iki ölkə arasındakı sərhədlərin yalnız kiçik bir hissəsi delimitasiya və demarkasiya olunub. Dünya təcrübəsindən də bəlli olduğu kimi, bu, uzun sürən bir prosesdir. Əgər sərhədlər müəyyənləşdirilməyibsə, Aİ-nin missiyası hansı ərazilər boyunca müşahidələr aparır? Aİ-nin tələm-tələsik regiona missiya göndərməklə bağlı qərar verməsi əvəzinə, sülhyaratma prosesində konstruktiv şəkildə iştirak etməsi daha yaxşı olmazdımı? Nə üçün özünü vasitəçi kimi sırımağa çalışan Makron həmişə qərəzli və birtərəfli mövqe tutub, separatizmə dəstək verən açıqlamalarla çıxış edib? Məhz Makronun və digərlərinin belə qərəzli yanaşmalarının nəticəsidir ki, Brüssel formatı iflasa uğradı və sülh prosesi Vaşinqton masasına daşındı. D.Trampın səyləri sayəsində onun vasitəçiliyi ilə sülhyaratma prosesində yeni mərhələ başlayıb, artıq tərəflər bir vaxtlar antaqonist görünən bütün bəndləri razılaşdırıblar və bundan sonra da gələcək fəaliyyətlərini bu çərçivədə həyata keçirəcəklər.

Başqa bir ziddiyyətli məqama diqqət yetirək. Mülki missiyanın üzərinə təhlükəsizliklə bağlı müəyyən öhdəliklər qoyulub. Beynəlxalq praktikada mülki missiyanın təhlükəsizlik məsələlərini araşdırmasına dair presedentlərə rast gəlinmir. Bu, xüsusi xidmət orqanlarının və yaxud hərbi qurumların fəaliyyət sferasına daxil olan bir məsələdir. Belə qənaət hasil olur ki, Aİ-nin Ermənistana göndərdiyi emissarlar "mülki missiya" adı altında fərqli fəaliyyət həyata keçirirlər. Yeri gəlmişkən, bununla bağlı zamanzaman Azərbaycan və Rusiya öz narazılıqlarını ifadə ediblər. Bu narazılıqlar da ondan qaynaqlanır ki, missiya üzvlərinin qonşu dövlətlərə qarşı kəşfiyyat məlumatları toplayıb ötürmələrinə dair məlumatlar mətbuata məlum olub. Sonradan missiya sızdırılan məlumatları təkzib etməyib.

Mülki adlandırılan missiya guya sərhədlər boyunca insidentlərin və əhali üçün risklərin azalmasına kömək edəcəkdi. Bu, riyakarlığın son həddi sayıla bilər. Azərbaycanın şərti sərhədlər boyunca təxribatlar törətmək kimi bir niyyəti yoxdur və heç vaxt bunu etməyib. İndiyədək yaşanan bütün gərginliklərin fitilini xaricdəki bəlli dairələr və Ermənistandakı ayrı-ayrı qüvvələr alovlandırıb. Əgər Aİ münasibətlərində səmimidirsə, Ermənistana missiya göndərmək qərarı verməzdən öncə bunu nəzərə almalı idi.

Missiyada mülki əməliyyat komandirindən bəhs olunur. Bu termin də absurddur və heç də xoş məramdan xəbər vermir.

Bu və bir sıra digər məqamları ümumiləşdirsək, yekun qənaəti ifadə edə bilərik. Aydın şəkildə görünür ki, Ermənistana Aİ-nin missiyasının göndərilməsi Makronun növbəti manipulyasiyadır və artıq buna son qoyulması məqamı yetişib. Son iki il yarımda missiya sülhyaratma prosesinə hansısa bir töhfə verməyib, öz fəaliyyətini "binokl diplomatiyası" sərgiləməklə başa çatmış hesab edib. Belə mövcudluq ATƏT-in Minsk qrupunun fəaliyyətsizliyini xatırladır. Artıq de-fakto mövcud olmayan Minsk qrupu hüquqi baxımdan da tarixin toz basmış arxivinə göndərilir. Azərbaycan və Ermənistan qurumun de-yure ləğvi ilə bağlı ATƏT-ə müraciət ünvanlayıblar. İndi isə səhnəni tərk etmək, arzuolunmaz qonağın yola salınması növbəsi Aİ-nin Ermənistandakı missiyasına çatıb...

***Mübariz FEYİZLİ***

---

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti üzrə hazırlanmışdır**

# Etibarlı müttəfiq, sadiq tərəfdaş...

Müasir dünyada gedən inteqrasiya prosesləri bütün ölkələri, qitələri əhatə edir. Azərbaycan ötən 30 ildən çox bir müddətdə dünya birliyinin bütün sahələrdə, xüsusilə də enerji sahəsində aparıcı tərəfdaşına çevrilib. Sözsüz ki, bunun arxasında ölkə rəhbərliyinin gərgin əməyi, əzmkar və müstəqil xarici siyasət kursu dayanır. İndi Azərbaycanın iştirakı olmadan, nəinki regionda, hətta dünya miqyasında heç bir strateji layihənin reallaşması mümkün hesab edilmir.

Azərbaycanın qazandığı uğurların təməlində Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi daxili və xarici siyasət strategiyası dayanır. Onun əsasını qoyduğu müdrik və unikal diplomatiya nümunəsi Azərbaycanın xarici dövlətlərlə mehriban, faydalı əməkdaşlıq arxitekturasını formalaşdırıb.

## Dünya birliyinə sürətli inteqrasiya

Müstəqilliyinin ilk illərindən BMT, ATƏT və İKT-yə üzv olan Azərbaycan həyata keçirilən ardıcıl siyasət nəticəsində 2001-ci ildə Avropa Şurası kimi mötəbər bir quruma qəbul edilib. Beynəlxalq təşkilatlarla əlaqələrin genişləndirilməsinə böyük önəm verən Ulu öndər Avropa Birliyi, NATO və başqa təşkilatlarla sıx əlaqələr yaratdı, bu nüfuzlu qurumlar çərçivəsində qarşılıqlı faydalı münasibətlərin daha da inkişaf etdirilməsi üçün fəal xarici siyasət həyata keçirdi.

Azərbaycan regional və qlobal səviyyədə fəaliyyəti, o cümlədən, beynəlxalq arenada əməkdaşlığı genişləndirərək müstəqil dövlət kimi çoxlu sayda beynəlxalq təşkilata üzv oldu. Ölkəmiz eləcə də, GUAM regional qrupunun təsisçilərindən biridir. BMT Nizamnaməsinə, ATƏT və Avropa Şurası prinsiplərinə, dünya dövlətləri tərəfindən qəbul edilmiş digər beynəlxalq hüquq normalarına əsaslanan Azərbaycan dünyanın nüfuzlu beynəlxalq təşkilatları ilə fəal və genişmiqyaslı əməkdaşlığını davam etdirir. Bu əməkdaşlıq siyasi, iqtisadi, mədəni, humanitar, hərbi sahələri əhatə edərək çoxşaxəli xarakter daşıyır və ölkəmizin milli maraqlarının daha dolğun ifadə olunmasına, beynəlxalq aləmdə aparıcı rol oynayan dövlətlərlə qarşılıqlı faydalı əlaqələrin möhkəmlənməsinə mühüm təsir göstərir.

## Enerji diplomatiyasının unikal uğurları

Azərbaycan dünya iqtisadiyyatına fəal inteqrasiya edərək qlobal tərəfdaşlıqda ən etimadlı dövlətlərdən birinə çevrilib. 1994-cü ildə əsası qoyulan enerji diplomatiyası ölkəmizin dünya birliyi alyansında və fəal iqtisadi-siyasi tərəfdaşlar klubunda yer almasında əsaslı başlanğıcı qoydu. "Əsrin Müqaviləsi"nin ən əhəmiyyətli fazası olan "Azəri-Çıraq-Günəşli" yataqlarından hasil edilən neftin dünya bazarlarına çıxarılması, 2006-cı ildə Azərbaycan dünyanın ən böyük tranzit arteriyalarından biri olan Bakı-Tbilisi-Ceyhan boru kəmərinin istifadəyə verilməsi və neft resurslarının dünya bazarlarına çıxarılması Azərbaycanın qlobal iqtisadi imkanlarını nümayiş etdirdi .

Heydər Əliyev müəyyən etdiyi siyasi kursu daha da irəliyə aparan Prezident İlham Əliyevin yürütdüyü mükəmməl diplomatiya nümunəsi Azərbaycanın siyasi sabitliyinin möhkəmlənməsində, iqtisadi qüdrətinin artmasında, sosial rifahının gücləlnməsində, beynəlxalq miqyasda daha möhtəşəm və qətiyyətli Azərbaycanın mövqeyinin artmasında mühüm rol oynayıb. Yürüdülən mükəmməl xarici siyasət Azərbaycanın dünya miqyasında çox etibarlı tərəfdaş kimi nüfuz və imicini möhkəmləndirib. Azərbaycan neft bumundan sonra, Avropa bazarlarına qaz nəqli ilə Xəzər regionunda yeni bir cığır açıb, bölgədə enerji tranzitlərinin formatını da müəyyənləşdirməyə nail olub. Bakı-Tbilisi - Ceyhan, Bakı-Tbilisi-Ərzurum layihələrini icra edən,TANAP, TAP kəmərlərini reallaşdıran Azərbaycan Cənub Qaz dəhlizinin enerji koridorunu yaradıb. Bu uzaqgörən siyasəti sayəsində Azərbaycan dünyanın enerji və nəqliyyat xəritəsini yenidən tərtib etməklə, qlobal gücünü və mövqeyini artırıb.




## Yeni reallıqlar mühitində Azərbaycanın artan qüdrəti

Azərbaycanın diplomatiya tarixində qazandığı ən böyük uğurlardan biri, heç şübhəsiz, 2011-ci il oktyabrın 24-də 193 dövlətdən 155-nin dəstəyini alaraq BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsidir. Bu, ölkəmizin beynəlxalq aləmdə artan nüfuzunun, ərazi bütövlüyünün və sərhəd toxunulmazlığının bir daha təsdiqlənməsi deməkdir. Azərbaycan Prezidenti dünyanın ən güclü dövlətləri ilə nəhəng siyasi platformalarda yer almaqla öz siyasi zəkası və unikal diplomatik manevri ilə dünya siyasətində lider kimi adını yazdırıb. Onun ikitərəfli münasibətlərdə bərabər hüquq, qarşılıqlı hörmət, bir-birinin daxili işlərinə qarışmamaq prinsiplərinə sadiq qalması, eyni zamanda, ikitərəfli əməkdaşlığın heç bir halda üçüncü tərəfi hədəfə almaması və digər məharəti adımları beynəlxalq aləmdə dövlətimizə və onun rəhbərinə olan etimadı və yaxın dostluğu formalaşdırıb.

Bir çox beynəlxalq təsisatlara üzvlük, ələxsus da, Qoşulmama Hərəkatında yaradılan həmrəylik alyansı, Türk Dövlətləri Təşkilatında əvəzolunmaz təşəbbüskarlıq və digər diplomatik nailiyyətlər Azərbaycanın beynəlxalq münasibətlər sistemində sarsılmaz qüdrətini əks etdirir.

Tarixi Zəfərdən sonra daha da gücələnən və güc kimi qəbul edilən Azərbaycan yeni reallıqlar mühitində siyasi, iqtisadi, enerji, nəqliyyat-logistika, ticari-kommunikativ bloklarda potensial güc amili kimi xüsusi diqqətdə dayanır.

## Qlobal miqyasda nümunəvi Azərbaycan modeli

Azərbaycan ötən ilin sonunda daha bir mötəbər tədbirə -BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konransının 29 sessiyasına (COP29) ev sahibliyi etməklə qlobal miqyasda yeni nümunəvi modeli formalaşdırdı. n COP29-a ev sahibliyini üzərinə götürdüyü ilk gündən başlayaraq platforması yaratdı. COP29 çərçivəsində ölkəmiz beynəlxalq və yerli şirkətlərin bərpa olunan enerji mənbələrinin inkişafı və istifadəsinə təşviqini də sürətləndirdi, beynəlxalq maliyyə institutları ilə iqlim həlləri üzrə də intensiv əlaqələri artıraraq yeni paltformalar raq özünün "yaşıl enerji" diplomatiyasını yürütməklə geniş həmrəylik qurdu, 196 ölkədən 72 min iştirakçını ölkəmizdə böyük hörmətlə, yüksək qonaqpərvərliklə qarşıladı. Məhz ölkəmizin iradəsi sayəsində İqlim Maliyyəsi üzrə Fəaliyyət Fondu (İMFF) təsis edildi. Ümumilikdə, ölkəmiz tərəfindən dünya iqlim ailəsinə 14 əsas təşəbbüs irəli sürüldü və həmin təşəbbüslərin böyük əksəriyyəti üzrə praktiki işlər icra olundu. Bir sözlə, Azərbaycan COP29-u möhtəşəm iqlim tədbiri kimi tarixə yazdı.

Bütün bunlar bir daha Azərbaycanın dünyada etibarlı müttəfiq və sadiq tərəfdaş olmasını təsdiqləyən fundamental amillərdir.

***Yeganə Bayramova***

# Dayanıqlı iqtisadi inkişaf göstəriciləri

## Cari ilin ötən 7 ayında ÜDM-in həcmi artaraq 72 milyard manatı ötüb

2025-ci ilin yanvar-iyul aylarında ölkədə 72 milyard 429,9 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 0,9 faiz çox ümumi daxili məhsul istehsal olunub. İqtisadiyyatın qeyri-neft-qaz sektorunda isə 3,1 faiz artıb. ÜDM istehsalının 35 faizi sənaye, 10,1 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 7 faizi nəqliyyat və anbar təsərrüfatı, 6,3 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 6 faizi tikinti, 2,8 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,8 faizi informasiya və rabitə sahələrinin, 21,1 faizi digər sahələrin payına düşüb, məhsula və idxala xalis vergilər ÜDM-in 9,9 faizini təşkil edib. Əhalinin hər nəfərinə düşən ÜDM 7076,9 manata bərabər olub.

### Əhalinin gəlirləri və investisiya qoyuluşları artıb

2025-ci ilin yanvar-iyul aylarında əsas kapitala 9 milyard 911,8 milyon manat məbləğində, yaxud əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 3,4 faiz çox investisiya yönəldilib. Neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi 18,4 faiz azalsa da, qeyri neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi 15 faiz artıb. İstifadə olunmuş investisiyanın 5046,1 milyon manatı və ya 50,9 faizi məhsul istehsalı sahələrinə, 3335,2 milyon manatı (33,7 faizi) xidmət sahələrinə, 1530,5 milyon manatı (15,4 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunub. Əsas kapitala yönəldilmiş investisiyaların 7598,7 milyon manatını və ya 76,7 faizini daxili investisiyalar təşkil edib. İnvestisiyaların 7822,3 milyon manatı və ya 78,9 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə yönəldilib.

Hesabat dövründə əhalinin nominal gəlirlərində, bank əmanətlərində, ünvanlı sosial yardımın məbləğində, muzdlu işçilərin orta aylıq əməkhaqqında da artımlar qeydə alınıb. Belə ki, ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1 milyon 770,8 min nəfər olub və muzdla işləyənlərin or-




ta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 9,4 faiz artaraq 1097,3 manat təşkil edib. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, informasiya və rabitə, peşə, elmi və texniki fəaliyyət, eləcə də nəqliyyat və anbar təsərrüfatı sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olub. Bu göstərici uğurlu sosial-iqtisadi dinamikanın nəticəsi hesab edilə bilər. Qeyd edilən dövrdə inflyasiya 2024-cü ilin eyni dövrü ilə nisbətdə 5 faiz təşkil edib ki, bu da orta aylıq əməkhaqqından 2 dəfə aşağıdır.

### Vergi və sosial sığorta yığımlarında artım qeydə alınıb

2025-ci ilin ötən 7 ayı ərzində biznesin aktivliyinin yüksəlməsi fiskal yığımların həcmini də artırıb, vergi orqanlarının xəttilə dövlət büdcəsinə 10 milyard 558,4 milyon manatdan çox vergi daxil olub, proqnoza 6 faiz çox əməl edilib. 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə dövlət büdcəsinə vergi daxilolmaları 285,6 milyon manat və ya 2,8 faiz artıb. Qeyri-neft-qaz sektorunda daxilolmalar 7 milyard 588 milyon manatdan çox olub, proqnoz 103,4 faiz icra edilib. Əvvəlki ilin eyni dövrünə nisbətən bu sektordan vergi daxilolmaları 643,9 milyon manatdan və ya 9,3 faiz çox olub. Ödənilən vergilərin 71,9 faizi qeyri-neft-qaz sektorunun, 28,1 faizi isə neft-qaz sektorunun payına düşüb.

Bundan başqa, 2025-ci ilin yanvar-iyul aylarında muzdlu işçi sayının və əməkhaqqı fondunun “ağarması” prosesi şəraitində məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar 3 milyard 699,7 milyon manatdan çox olub. Bu mənbədən daxilolmalar əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 12,4 faiz və ya 409,4 milyon manatdan çox artıb. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar ötən ilin eyni dövrünə nisbətən 13,6 faiz artıb və 2 milyard 446,3 milyon manatdan çox təşkil edib.

İşsizlikdən sığorta haqları üzrə daxilolmalar 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 10,7 faiz artaraq 130,8 milyon manatdan çox olub. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar 12,2 faiz artıb və 98,9 milyon manatdan çox təşkil edib. İcbari tibbi sığorta haqları üzrə daxilolmalar ötən ilin eyni dövrünə nisbətən 10,8 faiz artıb və 641,1 milyon manatdan çox olub. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar 10,5 faiz artaraq 449,3 milyon manatdan çox təşkil edib.

### Qeyri-neft sütunları üzərində...

Cari ilin ötən 7 aylıq makroiqtisadi göstəriciləri onu təsdiqləyir ki, ölkə iqtisadiyyatının inkişafında ağırlıq mərkəzi tamamilə qeyri-neft sektorunun üzərinə transformasiya olunmaqdadır və hökumətin neft ÜDM-dən qeyri-neft ÜDM-ə keçid strategiyası özünü doğrultmaqdadır. Hökumətin yaxınmüddətli iqtisadi inkişaf ssenarilərinə əsasən, neft-qaz sektorunun tədricən daralacağı şəraitdə iqtisadi artımın əsas hərəkətverici qüvvəsi qeyri-neft gəlirləri olacaq. Ortamüddətli Xərclər Çərçivəsi sənədində və İqtisadiyyat Nazirliyi tərəfindən təqdim olunmuş proqnoz icmalında 2025-ci ilin sonuna ÜDM-in həcmi 129,2 milyard manat, o cümlədən qeyri-neft ÜDM-in həcmi 92,2 milyard manat təşkil edəcəyi öz əksini tapıb. Orta müddətdə ÜDM-in real artım tempinin orta illik 3,3 faiz, qeyri-neft ÜDM-in isə 5 faiz olacağı proqnozlaşdırılır. 2024-cü ildə neftqaz sektoru üzrə ÜDM-in real ifadədə 0,3 faiz artacağı ehtimal edilir. Bu dinamika sonrakı illər üzrə davamlı şəkildə yüksələcək və 2028-ci ildə ÜDM-in tərkibində qeyri-neft sektorunun payı daha da artaraq 77,8 faizə çatacaq, neft-qaz sektorunun payı isə 22,2 faizə bərabər olacaq.

Beynəlxalq maliyyə institutlarının açıqladığı hesabatlarda və yenilənmiş proqnoz ssenarilərində Azərbaycanda iqtisadi artımın ümidverici olmasına dair göstəricilər yer alıb. Beynəlxalq Valyuta Fondunun (BVF) dərc etdiyi “Regional iqtisadiyyatın inkişaf perspektivləri” adlı yeni hesabatında 2025-ci ildə ölkəmizdə ÜDM-in 4,5-5 faiz artacağı əksini tapıb. Eləcə də Dünya Bankı, Asiya İnkişaf Bankının hesabatlarında da 2025-ci ildə iqtisadi artımla bağlı müsbət proqnozlarında qeyri-neft resurslarının yüksək artımları müqabilində ümumi daxili məhsulun 5 faiz təşkil edəcəyi fərz olunur. Bu nikbin proqnozlar isə dövlətin 2025-ci ildə qarşıya qoyulan bütün hədəfləri icra etməsinə dərin zəmin yaradır.

***ELBRUS CƏFƏRLİ***

# Elektron pul dövriyyəyə çıxır

## E-pul təşkilatlarının sayındakı dinamika rəqəmsal bazara marağı artırır

Azərbaycanda rəqəmsal ödəniş sistemləri sahəsində yeni mərhələ başlayır. Belə ki, 2025-ci ilin ötən 7 ayı ərzində Azərbaycanda elektron pul (e-pul) emissiyası fəaliyyətini həyata keçirmək üçün daha bir neçə şirkət Mərkəzi Bankdan (MB) lisenziya alıb. Nəticədə e-pul emissiyası fəaliyyətini həyata keçirən təşkilatların sayı artaraq 20-yə yaxınlaşıb. Hazırda beynəlxalq ödənişlərin təchizat xidmətinə qoşulan və Azərbaycan istiqamətinə beynəlxalq ödənişlər xidmətini təmin edən digər şirkətlərində e-pul fəaliyyəti üçün Mərkəzi Banka müraciət edən digər şirkətlərin də mövcud imkanları dəyərləndirilir.

Qeyd edək ki, indiyə qədər 30-a yaxın şirkət e-pul emissiyası üçün MB-ya müraciət etsə də, hələlik onların mövcud infrastruktur və ödəniş bazarında təhlükəsizlik təminatı nəzərdən keçirildiyindən lisenziya ala bilməyib. Ancaq yaxın vaxtlarda həmin təşkilatların da müvafiq razılıq almaqla dövriyyəyə elektron pul buraxması mümkün olacaq.

### Qanun e-pul emissiyasına əsas verir

Bütün dünya ölkələrində geniş yayılan e-pulun buraxılışı Azərbaycanda yeni maliyyə aləti hesab edilə bilər. Bu, son illərdə ölkəmizin ödəniş xidmətləri və ödəniş sistemləri sektorunun inkişafı, nağdsız ödənişlərin həcminin yüksəlməsi, rəqəmsal ödəniş arxitekturasının möhkəmlənməsi, maliyyə bazarlarında daim yeni alətlərin tətbiqi ilə bağlı baş verən yeniliklərin nəticəsi olaraq gerçəkləşməkdədir. Ötən il “Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında” qanunun qüvvəyə minməsindən sonra e-pulun emissiyası üçün hüquqi çərçivə yarandı və MB bu prosesdə maraqlı olan təşkilatların imkanlarını dərindən araşdırdıqdan sonra yeni pulun dövriyyəyə çıxarılmasına icazə verdi. Yeni qanunda ödəniş xidmətlərinin təchizatçıları sırasına 6 təşkilat aid edilib ki, onlardan biri elektron pul təşkilatlarıdır. Elektron pul təşkilatları Mərkəzi Bankın müəyyən etdiyi tələblərə cavab verdiyi halda onlara lisenziya verilməsi məqsədəuyğun hesab olunur.



### Təhlükəsizlik necə qorunur?

“Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında” qanunda hesablaşmaların aparılması, lisenziyalaşdırma və qeydiyyata dair tələblər, elektron pul təşkilatları və operatorların müqavilə əsasında fəaliyyəti, ödəniş təşkilatının və elektron pul təşkilatının filial və nümayəndəliyinin açılması, xarici ödəniş təşkilatının və xarici elektron pul təşkilatının yerli filialının lisenziyalaşdırılması, hesab üzrə məlumat xidməti təchizatçısının reyestrə daxil edilməsi və nəzarət subyektlərinin rəhbərlərinə qarşı tələblər, təhlükəsizliyin təmin olunması və digər məsələlər öz əksini tapıb. Bu isə o deməkdir ki, e-pul dövriyyəyə buraxılandan sonra təhlükəsizlik amili xüsusi olaraq diqqətdə saxlanılacaq. Bu pulu emissiya edən təşkilat həm qanunun tələblərinə, həm də MB-nin təlimatlarına əsasən, e-pulun yerləşdiyi və tranzaksiya olunduğu informasiya və ödəniş sistemlərinin təhlükəsizliyini təmin etməyə, müştərilərin maliyyə məlumatlarının saxlanması və qorunmasına, habelə həmin sistemlərin etibarlı və dayanıqlı fəaliyyətinə məsuliyyət daşıyır. Bu baxımdan “United Payment” MMC müştərilərin pul vəsaitlərini və şəxsi məlumatlarını qorumaq üçün dələduzluq hərəkətlərinin aşkar edilməsi və vaxtında qarşısının alınmasında aidiyyatı təşkilatlarla birgə bütün zəruri tədbirləri həyata keçirməli olacaq.

### Elektron pulun üstünlükləri nədir?

Elektron pul hər bir şəxsin hesabında, kartında olan pulun elektron formada saxlanılmasıdır. Elektron pul fiziki nağd pula ehtiyacı aradan qaldıraraq tez və asan əməliyyatlar aparmağa imkan verir. İstifadəçilər ödənişləri, köçürmələri və alışları rəqəmsal olaraq, istənilən vaxt və istənilən yerdə internet bağlantısı ilə həyata keçirə bilər ki, bu, daha rahat və əlçatandır. İstənilən şəxs qeyd etdiyimiz şirkətin provayderi olduğu mobil tətbiq vasitəsilə özünün e-pul səhifəsini yaradaraq bütün ödənişləri və köçürmələri, o cümlədən banklara kredit ödənişlərini icra edə biləcək.

E- pulun üstünlüyü onun xərc cəhətdən effektiv olmasıdır. Belə ki, fiziki olaraq kağız və ya metal valyutanın çapı, daşınması və təhlükəsizliyi müəyyən xərclər tələb etdiyi halda, e-pulda bunlara ehtiyac yoxdur.

Hazırda dünyanın əksər ölkələrində elektron pullardan istifadə olunur, 2023-cü ildə dünyada rəqəmsal ödəniş bazarının gəlirləri 111 milyard dollardan çox olub. Bu maliyyə aləti biznesin və maliyyə sektorunun əməliyyatlarında çevikliyi və intensivliyi təmin etməklə vaxt və xərc itkilərinin qarşısını alır. Bu baxımdan, elektron pulun emissiyası ölkəmizdə iqtisadi proseslərin effektivliyinin və mobilliyinin artmasına əhəmiyyətli təsir edəcək. Eyni zamanda, pul kütlələrinin dövriyyə sürətində artım müşahidə olunacağı və bu resurslara əlçatanlığın təmin ediləcəyi gözlənilir. Elektron pullar ödəniş sistemini asanlaşdırmaqla yanaşı, mərhələli şəkildə gələcəkdə kağız pullardan istifadənin minimumlaşdırılmasına səbəb ola bilər. Bu, banklar üçün yeni imkan olmaqla bərabər, pul bazarı üçün də yeni məhsul buraxılışdır. Eyni zamanda, elektron pullar şəffaflığın artırılmasına da xidmət edir. Bu pullar vətəndaşlarımız üçün elektron yığım və hətta pul bazarında əməliyyatlar hesabına gəlir mənbəyinə də çevrilə bilər.

### “SWIFT” ödəniş sisteminə inteqrasiya

Yeri gəlmişkən, bir müddət əvvəl Mərkəzi Bankda “SWIFT” təşkilatının nümayəndə heyəti ilə keçirilən görüşdə “SWIFT”in həyata keçirdiyi proqramlar və qarşıda duran strateji hədəflər, o cümlədən “G20” ölkələrinin transsərhəd ödənişləri üzrə qarşıya qoyulmuş məqsədlər barədə müzakirələr aparılıb. Bu prosesdə banklarla yanaşı, elektron pul təşkilatlarının da rolunun artırılması nəzərdə tutulur. “2024-2026-cı illərdə maliyyə sektorunun inkişaf Strategiyası”nda əks etdirilmiş əsas hədəflərdən biri elektron pul və ödəniş təşkilatlarının “SWIFT” şəbəkəsinə qoşulmasıdır.

Azərbaycanda fəaliyyət göstərən elektron pul (e-pul) təşkilatlarının “SWIFT” qoşulması beynəlxalq ödəniş təchizat xidmətində yer alması və dünya maliyyə sisteminə çıxışlarının təmin olunması deməkdir. Hazırda sayı 10-a çatan e-pul təşkilatları rəqəmsal ödəniş bazarlarında daim yeni alətlərin tətbiqinə çalışır, vətəndaşların bank kanalları ilə yanaşı, bu sistem üzərində tez və asan əməliyyatlar aparmasını təmin etməklə, fiziki yüklənmələri aradan qaldırır, alternativ çıxış imkanları yaradır. Bu baxımdan, e-pul təşkilatlarının “SWIFT” şəbəkəsinə qoşulması maliyyə sektorunda müştərilərin xarici ölkələrlə köçürmələr və maliyyə mübadiləsinin aparılmasında işini asanlaşdıracaq.

***E.CƏFƏRLİ***

# Aİ dəvətli deyil...

Avropa İttifaqının dövlət və hökumət başçıları Ukrayna ilə bağlı bəyanat qəbul ediblər. Belə ki, bəyanatda qeyd olunur ki, Aİ Ukraynanın öz gələcəyini müstəqil şəkildə müəyyən etmək hüququnu dəstəkləyir və ölkənin Aİ-nin üzvü olması yolunda dəstəyi davam etdirməyə hazırdır. Sənəddə ABŞ Prezidenti Donald Trampın "Rusiyanın Ukraynaya qarşı təcavüzkar müharibəsinin dayandırılmasına və onun üçün ədalətli, davamlı sülh və təhlükəsizliyin əldə edilməsinə yönəlmiş" səyləri alqışlanır. Aİ ölkələrinin başçıları bəyan ediblər ki, Aİ ABŞ və digər müttəfiqlərlə əlaqəli şəkildə Ukraynaya siyasi, maliyyə, iqtisadi, humanitar, hərbi və diplomatik yardım göstərməyə, həmçinin Rusiya Federasiyasına qarşı məhdudlaşdırıcı tədbirlər tətbiq etməyə davam edəcək. Liderlər, həmçinin qeyd ediblər ki, konstruktiv danışıqlar yalnız atəşkəs və ya döyüş əməliyyatlarının intensivliyinin azaldılması şəraitində mümkündür.

## Aİ Ukrayna ilə bağlı sülh danışıqlarında iştirak etmək niyyətindədir

Ukraynada səfərdə olan Çexiyanın XİN rəhbəri Yan Lipavski jurnalistlərə açıqlamasında bildirib ki, Aİ Ukrayna ilə bağlı sülh danışıqlarında iştirak etməlidir - o, əsaslandırıb ki, rəsmi Kiyevə ən böyük hərbi yardım edən tərəf Aİ-nin üzv ölkələridir. Y.Lipavskinin sözlərinə görə, ABŞ mütəmadi olaraq əsas avropalı oyunçuları məlumatlandırır. "Demək olmaz ki, Avropa tamamilə kənarlaşdırılıb, lakin məlumat nisbətən azdır, ona görə də gəlin, tələsməyək. Dəyişməz olaraq qalan odur ki, Ukrayna nəyə razı olub-olmadığına hazır olduğuna qərar verməlidir", - deyə çexiyalı nazir əlavə edib. Çexiyanın XİN rəhbəri üç il yarım ərzində Rusiya qoşunlarının əsassız tammiqyaslı işğalına müqavimət göstərən Ukraynanın ərazi bütövlüyünü sarsılmaz prinsip adlandırıb.

## Makron masa kənarında...

Fransa Prezidenti Emmanuel Makron da Tramp və Putin arasında Alyaskada planlaşdırılan görüş ərəfəsində bəyanatla çıxış edib. O, Ukrayna Prezidenti ilə danışaraq bir daha vurğulayıb ki, "Ukraynanın gələcəyi, artıq üç ildən çoxdur azadlıq və təhlükəsizlik uğrunda mübarizə aparan ukraynalılar olmadan müəyyən edilə bilməz". Fransa Prezidenti bu bəyanatı Fransanın Var bölgəsində yerləşən Breqansondan Volodimir Zelenskiyə etdiyi telefon zəngindən sonra X sosial şəbəkə platformasında paylaşıb. Söhbət zamanı o, Trampın Rusiya ilə ərazi mübadiləsi barədə verdiyi təklifə də toxunub və bunun təhlükəli presedent yarada biləcəyi barədə xəbərdarlıq etdiyi bildirilir.

Fransa Prezidenti qeyd edib: "Avropalılar da bu məsələnin həllində iştirak etməlidir, çünki bu, onların təhlükəsizliyi ilə birbaşa bağlıdır". O, həmçinin Almaniyanın kansleri Fridrix Merts və Böyük Britaniyanın Baş naziri Kir Starmer ilə də bu mövzuda məsləhətləşmələr apardığını açıqlayıb.

Hazırda diqqət Tramp və Putin arasında Alyaskada keçiriləcək sammitə yönəlib. Lakin Makronun bu görüşdən kənarda qalması və proseslərə yalnız şərhlərlə reaksiya verməsi, bir çox müşahidəçilər tərəfindən Fransanın beynəlxalq arenada Ukrayna məsələsindəki rolunun zəiflədiyi kimi qiymətləndirilir.

Makronun "Ukrayna olmadan sülh mümkün deyil" çağırışı dəyərli olsa da, Fransa artıq sülh prosesindəki əsas danışıq masalarından kənarda qalıb. Bu, Fransa üçün diplomatik bir uğursuzluqdur.

Fransa lideri hələ də Avropanı birləşdirməyə çalışsa da, Trampın monoloji idarə strategiyası fonunda bu səylər səmərə vermir.



## Almaniyanın onlayn konfrans təşəbbüsü

Almaniya Kansleri Fridrix Merts ABŞ Prezidenti Donald Tramp, Ukrayna Prezidenti Volodimir Zelenski və Avropa ölkələrinin dövlət və hökumət başçıları ilə Rusiya-Ukrayna müharibəsinə dair məsləhətləşmələr aparmaq niyyətindədir. Almaniyanın "Tagesschau" informasiya agentliyinin məlumatına görə, məsləhətləşmələrin video konfrans çərçivəsində aparılması planlaşdırılır. Onlayn məsləhətləşmələrdən əvvəl F.Mertsin Fransa, Böyük Britaniya, İtaliya, Polşa və Finlandiyanın dövlət və hökumət başçıları ilə virtual görüşü təşkil olunacaq. Görüşdə Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen, NATO-nun Baş katibi Mark Rutte və Ukrayna Prezidenti Volodimir Zelenski də iştirak edəcəklər.

## ABŞ Aİ-nin danışıqlarda iştirak etməsində maraqlı deyil

Məsələ ilə bağlı politoloq Əlimusa İbrahimov "Yeni Azərbaycan" qəzetinə şərhində qeyd edib ki, ABŞ-ın Avropa İttifaqına Rusiya ilə Ukrayna arasında aparılacaq danışıqlarda iştirak etməsinə imkan verəcəyi inandırıcı görünmür.

"Tramp Rusiya-Ukrayna münaqişəsinin nizamlanması üzrə danışıqlar prosesinin yalnız ABŞ-ın vasitəçiliyi altında aparılmasında israrlıdır. Ağ Evin rəhbəri Avropa İttifaqının və ya Aİ-nin hər hansı üzv ölkəsinin bu danışıqlarda iştirak etməsini istəmir. Bunun səbəbi də bəllidir. Aİ və ABŞ-ın Ukrayna ilə bağlı siyasi mövqeləri fərqlidir, demək olar ki, bir-birilə ziddiyyət təşkil edir. Aİ Ukraynanın ərazi bütövlüyünü və suverenliyini prioritet hesab edir və sülh danışıqlarında bu prioritetin nəzərə alınmasını və münaqişənin məhz Ukraynanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində həll olunmasını tələb edir. Aİ-nin liderləri, rus ordusunun Ukraynadan tamamilə geri çəkilməsini münaqişənin nizamlanması üçün zəruri hesab edir. Tramp administrasiyası isə tam fərqli mövqe sərgiləyir. Tramp Ukraynada müharibənin tez bir zamanda sona çatmasında və iki münaqişə tərəfi arasında atəşkəsin əldə olunmasında maraqlıdır. Bunun üçün də Ukraynanı ərazi güzəştlərinə getməyə vadar edir. Mövqelərin üst-üstə düşmədiyinə görə, ABŞ prezidenti Aİ-ni danışıqlar prosesindən kənarlaşdırmağa çalışır. Avqustun 15-də ABŞ-ın Alyaska ştatında Donald Tramp ilə Vladimir Putin arasında ikitərəfli görüşün keçirilməsi gözlənilir. Bu görüşdə Ukrayna ilə bağlı çox mühüm məsələlər müzakirə olunacaq. Nə Aİ, nə də Ukraynanın rəhbərliyi Alyaska görüşünə dəvət edilməyib," - deyə Ə.İbrahimov vurğulayıb.

## Aİ-nin danışıqlarda iştirakı zəruridir?

"Hesab edirəm ki, Aİ-nin danışıqlar prosesində iştirak etməsi zəruridir. Ona görə ki, hazırda Ukraynada baş verən proseslər Avropanın təhlükəsizliyinə təsir göstərir. Əgər Rusiya Ukraynada öz istədiyinə nail olarsa, sonrakı mərhələdə Avropa ölkələrinin sabitliyi və təhlükəsizliyi təhdid altında olacaq. Ukraynada münaqişənin sülh və ədalətli şəkildə nizamlanması Avropada mövcud vəziyyətin davam etməsi üçün xüsusi əhəmiyyət kəsb edir," - deyə Ə.İbrahimov əlavə edib.

***Yunis ABDULLAYEV***




## BMT müraciət yayıb

BMT hər il avqustun 12-də qeyd edilən Beynəlxalq Gənclər Günü münasibətilə müraciət yayıb.

Təşkilatın məlumatına görə, "Gənclər dayanıqlı inkişafın aparıcı qüvvəsidir" sərlövhəli müraciətin mətnində dünya əhalisinin yarıdan çoxunun 30 yaşdan kiçik insanlar olduğu və gənclərin iqlim fəaliyyətindən bərabərliyə qədər olan məsələlərdə əsas səylərə rəhbərlik etdiyi vurğulanır. BMT bu kontekstdə gənclərin öz icmalarını və daha geniş dünyanı dəyişdirmək gücünü vurğulayır.

Müraciətdə qeyd olunur: "Hər il avqustun 12-də qeyd olunan bu əlamətdar gün hər yerdə gənclərin hüquqlarına, töhfələrinə və problemlərinə diqqət çəkir. Builki "Dayanıqlı İnkişaf Məqsədləri (SDG) və ondan kənarda yerli gənclərin fəaliyyəti" mövzusu həmin məqsədlərə nail olmaq və daha ədalətli, inklüziv cəmiyyətlərin formalaşdırılması üçün gənclərin cəlb edilməsinin necə vacib olduğunu vurğulayır".

Təşkilatın Baş katibi Antonio Quterreş bu əlamətdar gün münasibətilə müraciətində qeyd edir: "Gənclər cəsarətli yenilikçilər, davamlı təşkilatçılar və Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün vacib tərəfdaşlardır. Onlar davamlı inkişafa təkan verir, daha inklüziv icmalar qurur, sülhü möhkəmləndirir və ədalətli, yaşıl və təhlükəsiz gələcək tələb edirlər. Hər bir gəncin səsi, ideyaları və liderliyi bizim üçün vacibdir. Gəlin, gənclərin rəhbərlik etdiyi həlləri dəstəkləmək və daha ədalətli, dinc və davamlı dünya qurmaq üçün birlikdə çalışaq".

BMT-nin məlumatlarına görə, dünya əhalisinin yarısını 30 və ya daha gənc yaşda olanlar təşkil edir. 2030-cu ilə qədər bu rəqəmin 57 faizə yüksələcəyi gözlənilir. Bu gün 25 yaşdan aşağı olanlar 2050-ci ilə qədər qlobal əsas yaşlı işçi qüvvəsinin 90 faizindən çoxunu təşkil edəcəklər. Bundan əlavə, 26 ölkədə insanların ictimai həyatda üzləşdiyi çətinliklərlə bağlı 27 mindən çox respondent arasında keçirilən beynəlxalq sorğu göstərib ki, gənclərin 67 faizi daha yaxşı gələcəyə inanır, 15-17 yaşlı gənclər isə daha çox nikbinlik ifadə edirlər.

Təşkilat qeyd edir ki, bununla belə, gənclər sistemli problemlərlə üzləşməkdə davam edirlər. Onların arasında işsizliyin səviyyəsi son 15 ildə ən aşağı səviyyədə olsa da, qlobal miqyasda hələ də 13 faizə çatır. Bununla yanaşı, 10-19 yaşlı gənclər arasında hər yeddi nəfərdən biri psixi sağlamlıq pozuntusu yaşayır. Aşağı və orta gəlirli ölkələrdə 10 yaşlı uşaqdan təxminən altısı sadə bir abzası oxuyub başa düşə bilmir.

2025-ci il Beynəlxalq Gənclər Günü təkcə bu məsələlərin aktuallığını deyil, həm də gənclərin özləri tərəfindən - icmalarında, şəhərlərində və ölkələrində həll yollarını vurğulamaq məqsədi daşıyır. A.Quterreşin vurğuladığı kimi, "qlobal tərəqqi icmalardan başlayır və dünyanın hər yerində gənclər liderliyi ələ alırlar".

Beynəlxalq Gənclər Günü ilk dəfə 1995-ci ildə qəbul edilmiş Gənclər üçün Ümumdünya Fəaliyyət Proqramına əsaslanaraq, 1999-cu ildə BMT Baş Assambleyası tərəfindən elan olunub.

# 100 ildən çox davam edən mübahisə...

**Kim haqlıdır?**

Venesuela ilə Qayana arasında ərazi mübahisəsi yenidən gündəmə gəlib. Belə ki, Venesuelanın icraçı vitse-prezidenti Delsi Rodriges "Venezolana de Television" telekanalına açıqlamasında bildirib ki, Venesuela Beynəlxalq Ədalət Məhkəməsinə Qayana ilə mübahisə predmeti sayılan ərazi - Qayana-Essekiboya hüququnu təsdiq edən 50 cildlik sənəd təqdim edib. Rodriges çıxışı zamanı Venesuela Xarici İşlər Nazirliyinin "Venesuelanın Qayana-Essekibo üzərində suveren hüququnu və tarixi həqiqətlə bağlı mövqeyi"-ni əks etdirən kommünikesini oxuyub. Venesuela rəsmisinin sözlərinə görə, rəsmi Karakas Qayana ilə ərazi mübahisəsinin həllinə yönələn Beynəlxalq Ədalət Məhkəməsinin son qərarlarını tanımır - o, əlavə edib ki, Venesuela BMT Nizamnaməsinin əsas prinsiplərinə, o cümlədən Cenevrə sazişindən irəli gələn öhdəliklərinə sadiqdir. Qeyd edək ki, Qayana-Essekibo ərazisinin (159,5 min kv. km) mülkiyyət məsələsi üzrə mübahisə yüz ildən artıqdır ki, davam edir. 2015-ci ildə sözügedən ərazidə ən azı 10 milyard barel neft olan yataqların kəşfindən və Qayananın "ExxonMobil"ə neft hasilatına dair konsessiya vermısindən sonra mübahisə daha da kəskinləşib.

## Tarixi mübahisə nədən qaynaqlanır?

Venesuela ilə Qayana arasında 159,5 min kv. km olan Essekibo ərazisi üzərində mübahisə 19-cu əsrin 30-cu illərində başlayıb. Qeyd edək ki, 1835-ci ildə Böyük Britaniya hökuməti vaxtilə onun koloniyası olan Qayananın sərhədlərini araşdırmaq üçün alman əsilli kəşfiyyatçı və təbiətşünas Robert Hermann Şomburqku Cənubi Amerikaya göndərir. Şomburqkunun tədqiqatları nəticəsində Qayananın sərhəd əraziləri müəyyən olundu və Essekibo ərazisi də Qayananın tərkibinə daxil edildi. Lakin Venesuela hökuməti Britaniya Qayanasının sərhəd ərazilərini - belə demək mümkünsə, Şomburq Xəttini tanımadı. 1876-cı ildə bölgədə qızıl mədənlərinin aşkarlanmasından sonra vəziyyət daha da gərginləşdi və nəticə etibarı ilə 1887-ci ildə Venesuelanın o vaxtkı dövlət rəhbəri Antonio Quzman Blankon Böyük Britaniya ilə diplomatik əlaqələri tamamilə dayandırdı. Venesuela həmin ərazidə öz suveren hüququnu təmin etmək üçün ABŞ-a müraciət etdi. ABŞ da bu müraciətə cavab olaraq Venesuela və Britaniya Qayanası arasında ərazi mübahisəsinin həlli üçün vasitəçilik missiyasını üzərinə götürmək qərarına gəldi. ABŞ-ın təklifinə əsasən məsələyə Paris Arbitraj Məhkəməsi müdaxilə etdi. Uzunmüddətli prosesdən sonra - 1899-cu ildə ərazi mübahisəsi Böyük Britaniya və Britaniya Qayanasının xeyrinə həll olundu. Paris Arbitraj Məhkəməsinin qərarına baxmayaraq, Venesuela Essekibo üzərində iddialarını davam etdirdi.




## Məsələyə BMT müdaxilə edib

1949-cu ildə məsələ yenidən gündəmə gəldi. Həmin ildə ABŞ-Venesuela nümayəndə heyətinin arbitrajdakı rəsmi katibi Severo Mallet-Prevost tərəfindən memorandum təqdim olunur. Memorandumda qeyd olunur ki, 1899-cu ildəki qərar arbitraj məhkəməsinin o vaxtkı sədri Fridrix Martensin təzyiqi və Çar Rusiyası ilə Böyük Britaniya arasında siyasi razılaşmalar nəticəsində qəbul olunub. Venesuela həmin memorandumu əsas gətirərək 1962-ci ildə Birləşmiş Millətlər Təşkilatına şikayət məktubu göndərir. Dörd il ərzində aparılan qızğın müzakirələr nəticəsində 1966-cı ilin fevralın 17-də Cenevrədə Venesuela, Böyük Britaniya və Britaniya Qayanası arasında saziş imzalanır. Bu sazişin müddəalarına əsasən, tərəflər Essekibo ərazisi üzərində mübahisənin dinc və sülh şəraitində həll etmək üçün öhdəlik daşıyırlar, eyni zamanda tərəflər məsələnin nizamlanması üçün Beynəlxalq Ədalət Məhkəməsinə müraciət edə bilərlər. O vaxtdan bu günə qədər BƏM-də bu məsələ ilə bağlı bir çox müzakirələr aparılsa da və qərarlar qəbul olunsa da, ərazi üzərində mübahisə öz həllini tapmayıb.



## Venesuela öz iddiasında qərarlıdır

2023-cü ilin dekabrında Essekibonun Venesuelaya birləşdirilməsi üçün ölkədə ümumxalq referendumu keçirildi. Referendumda xalqın əksəriyyəti Maduronun təşəbbüsünün xeyrinə səs verdi. 2024-cü ilin martında Maduro hökuməti Essekibonun Venesuelanın bir parçası olduğunu elan edən qanunu qəbul etdi. Qayana hökuməti isə bəyanat yayaraq belə bir qanunun Cenevrə sazişinə zidd olduğunu bildirdi və danışıqlardan geri çəkilmək qərarına gəldi.

***Yunis ABDULLAYEV***

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Bakmətbuat” MMC - 0124314313
“Ziya LTD” MMC - 0124977696, 0503067744

6 aylıq abunə - 79,20 AZN
12 aylıq abunə - 158,40 AZN



# Onlar fərqlidirlər...




13 avqust - Beynəlxalq Solaxaylar Günüdür. Bu gün solaxayların unikallığının və fərqliliklərinin cəmiyyətə çatdırılması və təbliğ olunması məqsədilə qeyd edilir.

Bu gün ilk dəfə 1976-cı ildə “Lefthanders International” təşkilatının qurucusu Dean Kampbel tərəfindən qeyd olunub. 1992-ci ildə isə Britaniya Solaxaylar Klubunun təşəbbüsü ilə Beynəlxalq Solaxaylar Günü təsis edilib.

Bəzi məlumatlara görə, dünya əhalisinin 15-20 faizini solaxay insanlar təşkil edir. Statistikaya görə, Azərbaycanda əhalinin 8 faizi solaxaydır.

İnsanların böyük əksəriyyəti sağ əllərindən istifadə etməyə üstünlük verdiyi üçün bir çox əşyalar da məhz buna uyğun tərtib edilir. Qayçı, yazı masaları, spiral dəftərlər demək olar ki, solaxay insanların istifadə etməsi qeyri-mümkün olan məhsullardır.

## Solaxaylıq xəstəlik deyil

Ancaq solaxaylar üçün həyat tarix boyu da asan olmayıb. Qədimdə solaxay insanlar bəxtsiz olmaqda ittiham olunurdular. Vaxt var idi ki, solaxayların həyatı hər an təhlükə altında idi. Keçmiş zamanlarda Avropada solaxaylıq iblislik əlaməti hesab edilirdi və solaxaylara ölüm hökmü oxunurdu. Bu səbəbdən də solaxay doğulanlar solaxay olduqlarını gizlətməyə çalışırdılar. Qədim Romada bu cür insanları “sinister”, yəni “pislik” adlandırırmışlar. Orta əsrlərin kilsə xadimləri isə solaxayları “şeytan” adlandıraraq yandırırdılar. Rusiyada isə I Pyotr belə bir fərman vermişdi ki, “kürənlər, solaxaylar, taygözlər məhkəmədə şahidlik edə bilməzlər”. I Pyotr bunu belə izah edirdi: “Fırıldaqçı bədzatlara İlahi özü nişan qoyur”.

## Solaxaylıq nədir?

Əvvəlcə onu qeyd edək ki, solaxaylıq qüsur deyil. Sağ əl beynin sol yarımkürəsi, sol əl isə sağ yarımkürəsi ilə idarə olunur. Alimlərin fikrincə, beynin sol yarımkürəsi informasiyanı daha tez mənimsəyir və buna görə solaxaylar informasiyanı tez və düzgün qəbul edir, xüsusi istedada malik olurlar. Psixoloqların hesablamalarına görə, solaxaylar arasında istedadlılar 20, sağ əllilərdə isə 5 faizdir.

## Solaxaylar haqqında maraqlı faktlar

-Solaxay insan qarşısındakı məsələyə daha tez cavab tapır;
-Solaxaylıq genlə gəlir;
-Solaxay kişilər qadınlara nisbətən daha çox psixoloji sarsıntı keçirir;
-Solaxay uşaqlar tərs olurlar.

## Məşhur solaxaylar...

Dünyada solaxay məşhurlar çoxdur: Bill Geyts, Leonardo da Vinçi, Mark Tven, Bethoven, Merilin Monro, Albert Eynşteyn, Janna d,Ark, Lüis Kerroll, Nikolay Leskov, Mikelancelo, Pol Makkartni, Sergey Raxmaninov, Brüs Uillis və Robert De Niro solaxay məşhurlardır.

Məşhur siyasətçilər Yuli Sezar, Makedoniyalı İsgəndər, Napoleon Bonapart, Böyük Karl, Uinston Çörçill də solaxay olublar. Amerikanın keçmiş prezidentləri Ronald Reyqan, ata Corc Buş, Bill Klinton, Barak Obama da solaxay siyasətçilər sırasına daxildir.

## Ultrasəs müayinədə bilinir...

Solaxaylığın mənşəyi ilə bağlı elmi dəlillərə əsasən, əl üstünlüyü hələ doğuşdan əvvəl formalaşır və bu, 10 həftəlik ultrasəs müayinəsi ilə təsdiqlənir. Müşahidələr göstərib ki, ilkin ultrasəs müayinədə uşağın sağ və ya sol əlli olmasını müəyyən etmək olur. Belə ki, sağ əllilərin sağ barmağını, solaxayların isə sol barmaqlarını əmmək ehtimalı daha çoxdur.

## Solaxaylıq genetikdir?

Araşdırmalara görə, uşaqlarda solaxaylıq meyli genetik xüsusiyyətlərə malikdir. Əgər valideynlərin hər ikisi solaxaydırsa, uşağın solaxay olma ehtimalı 50 faizdir. Valideynlərdən biri solaxaydırsa, nisbət 17 faiz, hər ikisi də solaxay deyilsə, bu nisbət 2 faizə düşür.

## Solaxayların beyni fərqlidir?

Araşdırmalara görə, solaxay və sağ əllilərin beyin quruluşu fərqlidir. Belə ki, beyin yarımkürələri hər iki qrupda fərqli olsa da, sağ əlli insanlarda fərqlər daha qabarıq şəkildə özünü göstərir. Xüsusilə, sağ əlli insanlarda dil funksiyaları daha çox sol yarımkürədə lokallaşdırılır, solaxaylarda isə bu aspektdə yarımkürələr arasında fərq daha az nəzərə çarpır.

Sağ əllilərin üstünlüyü məsələsinə gəlincə, bunun təkamülün yan təsiri olduğuna dair bir nəzəriyyə var. Çünki beynin sol yarımkürəsində nitq funksiyalarının inkişafı sağ əlin funksiyalarının artması ilə müşayiət olunub. Oxşar tendensiya meymunlarda da müşahidə olunur, burada sağ və solaxayların paylanması daha bərabərdir.

Bundan başqa, solaxaylar, döyüş sənətlərində müəyyən üstünlüklərə sahib ola bilərlər. Çünki sol tərəfdən hücum rəqibi təəccübləndirir. Bu sürpriz solaxaylara, qılıncoynatma kimi müasir idman növlərində üstünlük verir.

## Uşaq solaxay olarsa...

Uzun illərdir ki, solaxaylığın uğursuzluq gətirdiyi, sağ əlliliyin doğru bir şey olduğuna inanan insanlar var. Bundan başqa, bəzi valideynlər övladlarının solaxay olduğunu bildikdə onu bu vərdişdən uzaqlaşdırmağa çalışır. Lakin mütəxəssislər valideynlərin sol əlli uşaqları sağ əlindən istifadə etmək üçün təkid etməsinin düzgün olmadığını, bunun uşaqda ciddi öyrənmə çətinliklərinə səbəb ola biləyini vurğulayırlar.

## Onlar üçün sağ əllə yazmaq əsl stressdir

Psixoloq Aytən Ələkbərova “Yeni Azərbaycan”a açıqlamasında bildirib ki, insanın baş beyni, onun qabığı, sol və sağ yarımkürədən ibarətdir. Onun sözlərinə görə, zorla sağ ələ keçirilən hərəkətlərin nəticəsində uşaq nevroz, pəltək və tənbəl ola bilər: “Solaxaylar üçün sağ əllə yazmaq əsl stressdir. Solaxayların problemləri əslində sağ əllə işləməyə təkid edildikdən sonra yaranır”.

Psixoloq qeyd edib ki, solaxayların təxəyyülü yaxşı inkişaf edir. Onlar orijinallığı və obrazlı düşüncələri ilə fərqlənirlər: “Solaxaylar istənilən məkana asanlıqla adaptasiya olurlar. Buna səbəb solaxaylarda adıçəkilən keyfiyyətlərə cavab verən beynin sağ yarımkürəsinin inkişafıdır. Sağvərdişlilərdə inkişaf etmiş sol yarımkürə isə riyazi bacarıqlar, məntiqi düşüncə və oxuma-yazma texnikasına cavab verir.

Valideynlər solaxay övladlarını sağ əllə işləməyə məcbur etməkdənsə, uşağın sol əlini çox erkən yaşlardan inkişaf etdirməlidir. Ola bilsin ki, uşaqlıqda solaxaylar nəsə düzəltməyə və ya çəkməyə başlayanda bunu kobud edirlər. Lakin buna görə üzülməyə dəyməz. Belə uşaqlara səbrlə yanaşmaq və qabiliyyətlərini inkişaf etdirmək lazımdır”.

*Yeganə BAYRAMOVA*

# Ümidlə gözləyənlər...

## Dünya Orqan Donorluğu Günüdür

Hər il avqustun 13-də Dünya Orqan Donorluğu Günü qeyd olunur. Bu gün orqan transplantasiyası sayəsində həyatı xilas olan minlərlə insanın xatirəsinə həsr olunub. Ümumdünya Orqan Donorluğu Günü ilk dəfə 2005-ci ildə Dünya Səhiyyə Təşkilatının (DST) Cenevrədə keçirilən 58-ci sessiyasında qərara alınıb. Bu günün qeyd edilməsinin məqsədi insanları orqan donorluğu haqqında məlumatlandırmaq və bu sahədə maarifləndirmə işini artırmaqdır.




**Dünyada 35 min xəstə...**

Əgər bir ölkədə kifayət qədər orqan donorluğu yoxdursa, xəstələrin həyatını xilas etmək ancaq canlı donorlardan alınan orqanlarla mümkündür. Bu səbəbdən orqan donorluğu çox vacibdir. Dünya miqyasında orqan donorluğu və transplantasiyası statistikasına görə 2024-cü ildə dünyada 182 min 590 orqan transplantasiyası həyata keçirilib. Bu rəqəm 2020-ci illə müqayisədə təxminən 30 faiz artıb. Əvvəlki illərə nəzər saldıqda bu dərəcələrin hər il 5-10 faiz artdığını görürük. Hesablamalara görə, 2024-cü ildə dünyada hər saatda 20 orqan transplantasiyası həyata keçirilib. Bu yüksək görünən orqan nəqli rəqəmləri əslində bütün transplantasiya ehtiyaclarının yalnız 10 faizini qarşılamaq üçün kifayətdir. Yəni orqan transplantasiyası həyata keçirilə bilmədiyi üçün insanlar ölməyə davam edir. Bu səbəbdən orqan bağışlanması artmalıdır. Buna baxmayaraq, davam edən orqan çatışmazlığı bütün dünyada canlı donor orqan transplantasiyasına marağı artırıb.

Türkiyədə son illərdə orqan donorluğunda əhəmiyyətli irəliləyiş əldə olunsa da, 2026-cı ilə qədər təxminən 35 min xəstə orqan bağışlanması üçün növbə gözləməkdə davam edir. Bu rəqəmin əksəriyyətini böyrək transplantasiyası gözləyən xəstələr təşkil edir.

Xəstələrin orqanları öz funksiyalarını lazımi şəkildə yerinə yetirə bilmədiyi üçün onların həyat keyfiyyəti aşağı düşür və sağlamlıqlarına dərindən təsir edir.

Orqan transplantasiyası tibbi müalicə üsullarına baxmayaraq adekvat və lazımi şəkildə fəaliyyət göstərə bilməyən orqanın çıxarılması və eyni orqanın donordan resipiyentə köçürülməsi ilə həyata keçirilir. Orqan transplantasiyasının məqsədi insanın həyat keyfiyyətini yaxşılaşdırmaqdır. Xroniki orqan çatışmazlığı kimi həyati problemlərdən əziyyət çəkən insanlar üçün xüsusilə vacibdir.

**Orqan donorluğu nədir?**

Orqan donorluğu 18 yaşından yuxarı şəxslər tərəfindən bir və ya bir neçə orqanın digər xəstələrin müalicəsində istifadə olunmaq üçün şüurlu və iradəli şəkildə bağışlanmasıdır. Əqli cəhətdən stabil olan və yaşı 18-dən yuxarı olan istənilən şəxs orqan donoru olmaq üçün müraciət edə bilər.

Orqan donorluğu tibbi müalicə üsullarına baxmayaraq funksiyalarını yerinə yetirə bilməyən orqanın çıxarılması və eyni orqanın transplantasiya yolu ilə donordan resipiyentə köçürülməsidir.

İanələr tamamilə könüllülük əsasında həyata keçirilir. Bu gün ianələrin 90 faizindən çoxu canlı donorlardan (canlı fərdlər), qalanları isə meyit donorlarından (beyin ölümü) əldə edilir.

18 yaşdan yuxarı və sağlam düşüncəli hər kəs orqan donorluğuna namizəd ola bilər. Donor olmaq istədiyinizi bildirdiyiniz transplantasiya qrupuna prosesin əvvəlində sağlamlıq vəziyyətinizlə bağlı ətraflı məlumat versəniz, bu məlumatlar və lazım gələrsə ediləcək bəzi testlər işığında yaxşı namizəd olub-olmamağınız müəyyən ediləcək.

Əgər siz ölümdən sonra orqanlarınızı bağışlamaq istədiyinizi bildirən vəsiyyətnamə etmisinizsə, ilk növbədə hansı orqanların donorluq üçün tibbi baxımdan məqbul olduğunu müəyyən etmək üçün qiymətləndirmə aparılacaq.

Donorun orqanlarının yığılması üçün o, tibbi cəhətdən ölü elan edilməlidir. Bu o deməkdir ki, beyin ölümü baş verib.

Bir orqan bağışlansa belə, hər ölümdən sonra orqan transplantasiyası mümkün deyil. Ölümdən sonra tibb mütəxəssisləri hansı orqanların transplantasiya üçün uyğun olduğuna qərar verirlər.

**Qanunla tənzimlənir...**

Azərbaycanda orqan donorluğu “İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında” qanun və digər rəsmi sənədlərlə tənzimlənir. Adıçəkilən qanuna görə, orqan donorluğu dedikdə donor orqanların transplantasiya məqsədilə canlı insandan, yaxud meyitdən götürülməsi, donorun diaqnostik müayinəsi, ölümdən sonra donorluq zamanı donor orqanların funksionallığının təmin edilməsi, donor orqanların saxlanması və daşınması, idxalı və ixracı üzrə fəaliyyət nəzərdə tutulur.

Məlumata görə, Azərbaycanda ümumi olaraq - 794 (onlardan isə qaraciyər üzrə 173, böyrək 225, sümük iliyi 355, buynuz qişa 41) resipiyent donorunu gözləyir. 2023-cü ildə ölkəmizdə 269 (onlardan isə qaraciyər üzrə 66, böyrək 99, sümük iliyi 41, buynuz qişa 64) bu cür əməliyyat icra olunub.

Orqan transplantasiyası 18 yaşdan yuxarı şəxslər tərəfindən könüllü olaraq həyata keçirilən həyat xilasedici təşəbbüsdür. İnsan sağ ikən orqanlarını bağışlamaqla yanaşı, onların ailəsi də ölümündən sonra orqanlarını bağışlaya bilər.

Son illərdə irəliləyişlər olsa da, ianələrin sayı hələ də yetərli deyil. İnsanların öldükdən sonra hələ sağ ikən orqanlarını bağışlamaq təşəbbüsü ilə çıxış etmələri son dərəcə həyati əhəmiyyət kəsb edir. Çünki ürək, buynuz qişa kimi toxuma və orqanların transplantasiyası canlı insanlardan alına bilməz. Bu orqanlara ehtiyacı olanlar isə donorların orqanlarının öləndən sonra onlarla uyğunlaşacağı ümidi ilə gözləyirlər.

Təəssüf ki, bu gün orqan transplantasiyasına ehtiyacı olanların sayı orqan vermək istəyənlərin sayından qat-qat çoxdur. Orqan transplantasiyası gözləyən xəstələrin sayının artmasında genetik faktorlar, xroniki xəstəliklər və pis həyat vərdişləri böyük rol oynayır.

*Sahib*

# Azercell müştəri xidmətlərini rəqəmsallaşdırmağa davam edir




Azercell yeni nəsil rəqəmsal imza texnologiyası olan “SİMA İmza”nı tətbiq etməklə müştəri xidmətlərini daha da sadələşdirir. Bu çərçivədə Müştəri Xidmətləri mərkəzlərində və satış məntəqələrində yeni nömrələrin aktivləşdirilməsi zamanı müqavilələr artıq kağız daşıyıcıda deyil, elektron formatda tərtib ediləcək. Müştərilər isə sənədləri “SİMA İmza” tətbiqi vasitəsilə asan və etibarlı şəkildə imzalaya biləcəklər.

Bu innovativ yanaşma xidmət zamanını qısaltmaqla yanaşı, müştəri təcrübəsinin təkmilləşdirilməsinə, eləcə də kağız sərfiyyatının azaldılması ilə ətraf mühitin mühafizəsinə töhfə verəcək.

Qeyd edək ki, hazırda abunəçilərə həm kağız, həm də rəqəmsal imza alternativləri təqdim olunur. Lakin yaxın zamanda imzalama prosesinin tam rəqəmsal formata keçirilməsi planlaşdırılır.

# “Bakcell” “11-ci Milli Seçim Konfransı”nın əsas tərəfdaşıdır

İnnovasiya və sürət lideri “Bakcell” Avropa Gənclər Parlamentinin (AGP) Azərbaycan nümayəndəliyinin təşkilatçılığı ilə keçirilən “11-ci Milli Seçim Konfransı”nın əsas tərəfdaşıdır. AGP Azərbaycan tərəfindən 8-12 avqust tarixlərində təşkil edilən “Milli Seçim Konfransı” Azərbaycanın müxtəlif bölgələrindən və Avropa ölkələrindən olan fəal gəncləri bir araya gətirir. İştirakçılar tədbirlərdə və debatlarda rəqəmsal dövrün aktual mövzuları üzrə fikir mübadiləsi aparır və beynəlxalq sessiyalarda ölkəni təmsil etmək şansı qazanırlar.

Tədbirin açılış mərasimində “Bakcell”in ictimaiyyətlə əlaqələr və korporativ kommunikasiyalar üzrə direktoru Aysel Süleymanova gəncləri salamlayaraq bildirib ki, rəqəmsallaşmanın sürətlə yayıldığı bir dövrdə innovasiyalar bir sıra fəaliyyət istiqamətlərində inkişaf imkanları yaradır. O, innovasiya mövzusuna əsaslanan bu cür görüşlərin gənclərin gələcək karyeraları üçün əhəmiyyətli olduğunu vurğulayıb.




Tədbirdə “Bakcell”in məhsul üzrə eksperti Rüfət Quliyevin təqdimatında “Süni intellekt və innovasiya” mövzusunda interaktiv sessiya keçirilib. Təlimin əsas məqsədi gənclərin rəqəmsal savadlılığını artırmaq, onları texnologiya və süni intellektdə ən son trendlərlə tanış etmək, həmçinin bu sahələrin gələcək imkanlarına dair düşüncələrinin formalaşdırılmasına dəstək olmaqdır. Sessiya zamanı innovasiyaların gündəlik həyata təsiri müzakirə olunub, iştirakçılar interaktiv tapşırıqlar vasitəsilə yaradıcı və innovativ ideyalarını nümayiş etdirmək imkanı əldə ediblər.

“Bakcell” bu təşəbbüslə korporativ sosial məsuliyyət (KSM) və dayanıqlılıq strategiyasını davamlı olaraq icra edir və cəmiyyətin dayanıqlı gələcəyinə öz töhfəsini verir. Şirkət gənclərin bilik və bacarıqlarının artırılmasına, innovativ düşüncə və liderlik potensialının təkmilləşdirilməsinə yönəlmiş sosial layihələri daim prioritet hesab edir.

**“Bakcell” haqqında**

“Bakcell” Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda şirkət üç milyondan çox müştərini yüksəkkeyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir. Ölkə iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biri olan “Bakcell” süni intellekt əsaslı innovativ həllərlə Azərbaycanın dayanıqlı inkişafına töhfə verir.

“Bakcell” müxtəlif ölkələrdə telekommunikasiya, enerji, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən “NEQ-SOL Holding” beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4746
Sifariş: 1657
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova